№ 09 (1004) 1-6 mart 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İlham ƏLİYEV: Mingəçevir ölkəmizin güclü sənaye mərkəzlərindən birinə çevrilməlidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 27-də Mingəçevir şəhərində səfərdə olmuşlar.
Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov Mingəçevirdə görülən abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat vermişdir.
Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 424 MVt gücündə Mingəçevir Su Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak etmişdir.
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat vermişdir.
Bildirilmişdir ki, son illər Azərbaycanda energetika sahəsində çox mühüm layihələr icra olunub. Bu sahədə aparılan islahatlar nəticəsində elektrik stansiyaları həm texniki, həm də görünüş baxımından müasirləşir, onların gücü artırılır. Son 14 ildə ölkədə 30 yeni elektrik stansiyası tikilərək istismara verilib, mövcud generasiya müəssisələri yenidən qurularaq modernləşdirilib. Elektrik enerjisinin istehsal potensialı ölkədaxili tələbatı tam ödəməklə yanaşı, ixrac imkanı da yaradıb.
Diqqətə çatdırılmışdır ki, müstəqillik illərində Mingəçevir Su Elektrik Stansiyasında yenidənqurma işlərinin aparılmasına ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə başlanılıb. Bu prosesin davamı olaraq, 2010-2017-ci illərdə burada əsaslı yenidənqurma işləri həyata keçirilib. Hazırda burada 130 işçi çalışır.

**XXX**

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir şəhərinin elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışında iştirak edib.
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev Prezident İlham Əliyevə Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin fəaliyyəti və burada yaradılan şərait barədə məlumat vermişdir.
Bildirilmişdir ki, Avtomatik İdarəetmə və Nəzarət Mərkəzində elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunması, balansın real vaxt rejimində və texnoloji itkilər müəyyənləşdirilərək təhlil edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, sayğacların oxunması, fider və xətlər üzrə yük parametrlərinin virtual arxivləşdirilməsi, elektron xəritə vasitəsilə abonentlərin müraciətlərinə əsasən texniki şərtlərin verilməsi, istehlakçıların elektrik şəbəkəsinə qoşulması haqda sənədlərin hazırlanması işləri həyata keçiriləcək. "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional Elektrik Təchizatı və Satış İdarəsi də ötən müddətdə Mingəçevir, Bərdə, Tərtər, Yevlax, Kürdəmir, Ağdaş, Naftalan, Goranboy, Ucar, Ağsu, Göyçay şəhər və rayonları üzrə 1 milyon 200 min nəfər əhalini əhatə edən 261 min abonentə xidmətin səviyyəsinin yüksəldilməsi üçün kompleks tədbirlər reallaşdırıb.

**XXX**

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışında iştirak ediblər.



Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə etməklə sənaye sahələrinin yaradılması, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin xüsusi çəkisinin artırılmasında sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir. Belə sənaye parklarından biri də yeni yaradılan Mingəçevir Sənaye Parkıdır. 2016-cı il sentyabrın 21-də təməli qoyulmuş Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması qərara alınıb. Sənaye Parkında fəaliyyət göstərəcək müəssisələrin xammal təchizatının davamlılığını və etibarlılığını təmin etmək üçün ardıcıl tədbirlər görülür. Görülən işlərin nəticəsidir ki, 2017-ci ildə pambıq istehsalı 2016-cı ilə nisbətən 2,3 dəfə artaraq 207,5 min tona çatıb. Hazırda respublikada illik istehsal gücü 24,6 min ton olan 6 iplik fabriki fəaliyyət göstərir. Lakin pambıqçılığın sürətlə inkişafı, innovativ texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması nəticəsində qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilinə ehtiyac yaranıb. Mingəçevir Sənaye Parkının ərazisində 14,5 hektar sahədə yaradılmış "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik istehsalı fabriki də belə müəssisələrdəndir.
İqtisadiyyat naziri Şahin Mustafayev və layihə rəhbəri Mehriban Axundova dövlətimizin başçısına və xanımına məlumat vermişlər ki, ümumi dəyəri 144 milyon manat olan fabriklərin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit verilib. Müasir texnologiyalar əsasında yaradılmış fabriklər Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərinin avadanlığı ilə təchiz edilib.
Fabriklərdə pambıq mahlıcından ildə 10 min tonu "Ring", 10 min tonu isə "Open End" üsulu ilə olmaqla ümumilikdə 20 min ton müxtəlif cür iplik istehsalı nəzərdə tutulur. "Ring" üsulu ilə istehsal edilən pambıq–poliester iplik daha zərif və yumşaq olduğu üçün uzun lifli pambıqdan alınır və daha bahalıdır. Bu məhsuldan əsasən köynək istehsal olunacaq.
Dövlətimizin başçısı görüşdə çıxış etmişdir. O, demişdir:
- Xatırlayıram, 2016-cı ilin sentyabr ayında biz bu ərazidə Mingəçevir Sənaye Parkının təməlini qoyduq. O vaxt bu ərazidə heç nə yox idi, boş bir ərazi idi.
Hazırda Mingəçevir Sənaye Parkının ilk iki fabriki açılır. Bu, dövlət-özəl sektor tərəfdaşlığının gözəl təzahürüdür. Çünki dövlət özəl sektorun inkişafı üçün əlindən gələni əsirgəmir, sahibkarlara güzəştli şərtlərlə kreditlər, metodik tövsiyələr verilir, iş yerlərinin yaradılması istiqamətində böyük işlər aparılır. Eyni zamanda, dövlət sənaye parklarının yaradılması ilə özəl sektora şərait yaradır. Əgər dövlət bu funksiyanı öz üzərinə götürməsəydi, əlbəttə özəl sektor, sahibkarlar üçün belə nəhəng fabrikləri yaratmaq o qədər də asan olmayacaqdı. Özəl sektor isə öz növbəsində, həm dövlətin güzəştli şərtlərlə verilmiş kreditlərindən yararlanır, eyni zamanda, öz vəsaitini qoymaqla belə gözəl fabriklər yaradır. Ona görə Azərbaycanda son illər ərzində yaradılan sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları bu məqsədi güdür. Mən əvvəlki illərdə də demişəm ki, Mingəçevir ölkəmizin güclü sənaye mərkəzlərindən birinə çevrilməlidir və biz bunu artıq görürük.
Ölkəmizdə bir neçə şəhərdə sənaye məhəllələri, zonaları vardır. Onların ən böyüyü Sumqayıt Kimya Sənaye Parkıdır. Oraya yatırılan investisiyaların həcmi 2,7 milyard dollardır. Neftçala, Hacıqabul, Sabirabad, Masallı və digər şəhərlərdə sənaye zonaları yaradılacaq və yaradılır, o cümlədən Mingəçevirdə.
Bu fabriklərdə 700-750 insan işlə təmin edilir və burada çalışanların böyük əksəriyyəti qadınlardır. Bu da çox gözəl haldır. Çünki biz qadınları işlə təmin edirik və ümumiyyətlə, Mingəçevirdə işsizliyin aradan qaldırılması üçün bu fabriklərin çox böyük rolu olacaqdır. 700-750 insan burada daimi işlə təmin edilir. Buraya böyük vəsait yatırılıb, 140 milyon manat sərmayə qoyulub. Bu da onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox əlverişli məkandır, gözəl ölkədir. Son 15 il ərzində ölkə iqtisadiyyatına 230 milyard dollardan çox sərmayə qoyulub. İndi bizim əsas məqsədimiz ondan ibarətdir ki, bu sərmayə daha çox qeyri-neft sektoruna qoyulsun.
Azərbaycanda hazırda altı iplik fabriki fəaliyyət göstərir. Bu iki fabrik bu gün istifadəyə verilir. Beləliklə, onların sayı səkkizə

## BU FACİƏNİ HEÇ ZAMAN UNUTMAYACAĞIQ!

***Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı abidəsini ziyarət edərkən "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.***
Müsahibə fevralın 26-da telekanalın Xocalı soyqırımı ilə əlaqədar efirə gedən reportajında yer alıb. Müsahibəni təqdim edirik.
**Müxbir:** İlham Heydər oğlu, ağır səhərdir. Hansı düşüncələrlə buraya gəlmisiniz, hansı fikirlərlə yuxudan oyanmısınız? Deməliyəm ki, Rusiyada rusiyalılar bu faciəni xatırlayırlar və bu günü ehtiramla yad edirlər. Hansı düşüncələrlə bu gün buraya gəlmisiniz?
**Prezident İlham Əliyev:** İlk növbədə, belə bir gündə bizimlə birlikdə olmaq və Azərbaycan xalqının faciəsinə münasibət bildirmək üçün Bakıya gəldiyinizə görə sizin telekanala təşəkkür etmək istəyirəm. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə sizə minnətdaram. Bu gün Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biridir, azərbaycanlıların soyqırımı günüdür. Bu günü Azərbaycan xalqı həmişə yadda saxlayacaq və heç vaxt unutmayacaq. Ermənistan 26 il əvvəl azərbaycanlılara qarşı soyqırımı törədib. Bunun nəticəsində 613 dinc sakin öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaqdır. 1200-dən çox dinc sakin əsir düşüb və işgəncələrə məruz qalıb, 500-ə qədər insan əlil olub, 150 dinc sakin barədə isə heç bir məlumat yoxdur. Onlar itkin düşmüş sayılırlar, amma onların öldürüldüyü ehtimalı daha çoxdur.




Həmin müdhiş gün, həmin qanlı faciə barədə çox sayda video, foto materiallar, möcüzə nəticəsində sağ qalmış insanların şahidliyi var. Bu, erməni faşizminin təzahürü idi. Bu, vəhşiliyin təzahürü idi.
Bu gün bütün dünyada "Xocalıya ədalət!" kampaniyası genişlənir. Bu günlər dünyanın bir çox ölkələrində matəm tədbirləri keçirilir. Bu günlər Azərbaycanın diaspor təşkilatları, ictimaiyyət "dəyirmi masa"lar, təqdimatlar, sərgilər keçirir. Bütün foto və video sənədlər bu böyük faciə haqqında şahidlik edir. Biz bunu xatırlayırıq. Bunu heç vaxt unutmayacağıq. Bu faciənin heç vaxt təkrarlanmaması üçün Azərbaycan daha güclü olmalıdır.
Siz mənim bu matəm gününü hansı hisslərlə qarşıladığımı soruşdunuz - hər bir azərbaycanlının keçirdiyi hisslərlə, günahsız öldürülənlərə görə dərd, kədər, qurbanlara görə ağrı hissi, eyni zamanda, ölkəmizi möhkəmləndirmək qətiyyəti ilə. Azərbaycan xalqının gələcəkdə heç vaxt belə faciə ilə üzləşməməsi üçün ölkəmizin iqtisadi, hərbi potensialını möhkəmləndirməliyik.



qalxır və altı fabrikin istehsal gücü 24 min ton iplikdir. Bu iki fabrikdə isə 20 min ton iplik istehsal olunacaq. Yəni, bu müasir fabriklərdə əvvəlki dövrlərdə istifadəyə verilmiş fabriklərlə demək olar ki, eyni səviyyədə iplik istehsal olunacaq və həm daxili tələbatı təmin edəcək, həm də ixrac olunacaq.

Bu gün bizim əsas məqsədimiz qeyri-neft ixracının artırılmasıdır və bu istiqamətdə də çox gözəl işlər görülür. Eyni zamanda, bu fabrikin timsalında biz ölkəmizin hərtərəfli inkişafını görürük. Çünki bu, böyük sənaye mərkəzidir, sənaye müəssisələridir. Son iki il ərzində Azərbaycanda pambıq istehsalı 35 min tondan 207 min tona qalxıb. Ümid edirəm ki, bu il daha çox pambıq yığımı nəzərdə tutulur. Pambığın, mahlıcın əsas hissəsi Azərbaycanda emal olunacaq, beləliklə əlavə dəyər, iş yerləri yaranacaq və biz mahlıcı yox, hazırda ipliyi, gələcəkdə isə hazır məhsulu, tekstili, parçanı ixrac edə və daxili bazarı təmin edə bilərik.

Kənd təsərrüfatının sürətli inkişafına böyük dövlət dəstəyi göstərilir, texnika alınır, suvarma işləri aparılır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir, o cümlədən pambıqçılığın inkişafı, sənaye müəssisələrinin yaradılması üçün dövlət öz dəstəyini göstərir. Özəl sektor da bu işlərdə çox fəaldır. Ona görə ölkəmizin hərtərəfli inkişafı üçün bu əsas istiqamət mütləq inkişaf edəcək. Sənaye istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı - Mingəçevirdə biz bu iki önəmli sahənin birləşməsini görürük və Mingəçevir Azərbaycanın ən güclü sənaye mərkəzlərindən birinə çevrilir.

Mingəçevirdə sosial sahədə böyük işlər görülür, 430 çarpayılıq mərkəzi şəhər xəstəxanası əsaslı şəkildə təmir edilmişdir, Kür Olimpiya avarçəkmə bazası yenidən qurulmuşdur, ictimai binalar, şahmat, gənclər mərkəzləri istifadəyə verilmişdir.

Eyni zamanda, son illərdə Mingəçevir turizm mərkəzinə çevrilir. Burada yeni otellər açılır, turistlərin sayı artır. Turizm hərtərəfli inkişaf edəcək. Bax bu gün bu iki fabrikin açılışı göstərir ki, nə demişiksə, onu da edirik. Hansı söz verilmişdirsə, o da yerinə yetirilir.

**XXX**

Daha sonra Prezident İlham Əliyev "Open End" üsulu ilə iplik istehsalı müəssisəsini işə salmışdır.

Bildirilmişdir ki, "Open End" üsulu ilə alınan iplik daha kobud olduğundan əsasən cins və digər geyimlərin istehsalında istifadə olunur. Bu cür müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammal ilə təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına imkan verəcək. Bunun da nəticəsində ölkəmizə əlavə valyuta daxil olacaq.

**XXX**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Mingəçevir-Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə yenidən qurulan 26 kilometrlik Aran-Qarağacı hissəsinin açılışında iştirak edib.

Yolun ümumi uzunluğu 26 kilometr, eni isə 12 metrdir. Üçüncü texniki dərəcəli yol iki hərəkət hissəlidir. Hərəkət hissələrinin hər birinin eni 3,5 metrdir. Layihə çərçivəsində iki yeni körpü və beş yeraltı keçid inşa olunub, 53 boru quraşdırılıb. İşlərin yüksək keyfiyyətlə həyata keçirilməsi üçün yolun yenidən qurulması zamanı Avtomobil Yolları Dövlət Agentliyi bütün qüvvəsini səfərbər edib. İnşaat işləri texniki ardıcıllığa uyğun aparılıb. Mingəçevir-Bəhramtəpə avtomobil yolu respublikamızın regionları, o cümlədən Yevlax, Bərdə, Beyləqan rayonları arasında iqtisadi əlaqələrin, həmçinin turizmin və regionların sosial-iqtisadi inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir.

Bütün bu xüsusiyyətlərlə yanaşı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini əlaqələndirən bir magistral olmaqla tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında da bu yolun mühüm rolu var.

**XXX**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 27-də Mingəçevirdə "ASAN Həyat" kompleksinin açılışında iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Mingəçevir "ASAN Həyat" kompleksi barədə dövlətimizin başçısına və xanımına ətraflı məlumat vermişlər.

Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq əməkdaşlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur.

Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyni adlı qurum "Asan Khedmat" təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. 2014-cü ildə "ASAN xidmət" İSO 9001:2008 və OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. "ASAN xidmət" 2015-ci ildə BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub. Bu faktların özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var.

Mingəçevir "ASAN Həyat" kompleksi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 13-cü mərkəzidir.

Kompleksin "ASAN xidmət" mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Bu mərkəz Mingəçevir şəhərinə, Yevlax və Ağdaş rayonlarında qeydiyyatda olan 337 min 767 vətəndaşa xidmət göstərəcək. Dövlətimizin başçısına və xanımına növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan digər "ASAN xidmət" mərkəzlərinin layihələri də təqdim olunmuşdur.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "ASAN xidmət"lərin özünəxidmət terminalı vasitəsilə təqdim olunması barədə də məlumat verilmişdir.

Daha bir yenilik isə "ASAN Ödəniş" sistemi üzərindən viza verilməsi prosesidir. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycanın beynəlxalq hava limanlarında viza müraciəti prosesinin təmin edilməsi üçün "ASAN Ödəniş" terminallarından istifadə ediləcək.

Yeni layihələrdən biri də "ASAN Turist" mobil applikasiyasıdır. Bu layihə ölkəmizə gələn turistlərin bütün turizm xidmətlərindən yararlanmasına imkan verəcək vahid platformadır. Turistlər applikasiyadan istifadə etməklə öz maraq dairəsinə uyğun obyektləri naviqatordan rahatlıqla taparaq xidmətlərdən istifadə edə, turizm şirkətlərinin regionlara təşkil etdikləri turlardan yararlana və özləri üçün səfərləri planlaşdıra bilərlər.

Mingəçevir "ASAN Həyat" konsepsiyası Mingəçevir "ASAN xidmət" mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsini də nəzərdə tutur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "ASAN Həyat" kompleksinə daxil olan "ASAN Peşə" ilə tanış olmuşlar.

**XXX**

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir şəhərinin içməli su təchizatı sisteminin istismara verilməsi mərasimində iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Mingəçevir şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına məlumat vermişdir.

Şəhəri içməli su ilə təmin etmək üçün mənbə olaraq Mingəçevir su anbarı seçilib və onun yaxınlığında müasir sutəmizləyici qurğunun inşası layihələndirilib. İlkin mərhələdə burada təbii şəraitdə durulan suyun təmizləyici qurğuya ötürülməsi məqsədilə göldən təmizləyici qurğuya diametri 800 mm olan borularla 720 metr uzunluğunda əsas daşıyıcı kəmər inşa edilib.

İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi üçün məhsuldarlığı sutkada 55 min kubmetr və ya saniyədə 636 litr olan müasir tipli qum süzgəcli təmizləyici qurğu tikilib. Gələcəkdə bu qurğudan Yevlax şəhərinə və əhalisi 8500 nəfər olan 7 kəndə içməli suyun verilməsi nəzərdə tutulur.



"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİ

**(əvvəli ötən sayımızda)**

Xoyski hökumətinin Gəncə dövründə qəbul etdiyi ən mühüm qərarlardan biri də 1918-ci il iyulun 15-də *Fövqəladə Təhqiqat Komissiyasının* yaradılması idi. Bu qərara əsasən, Birinci Dünya müharibəsi (1914-18) illərində Cənubi Qafqaz ərazisində yerli müsəlman əhalisinə qarşı törədilmiş vəhşiliklər və onların əmlaklarına qəsd ilə bağlı məsələlər araşdırılmalı, bu işdə günahkar olan şəxslər aşkar olunub, cinayət məsuliyyətinə cəlb edilməli idilər.

1918-ci il sentyabrın 15-də Azərbaycan və türk hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu Bakını azad etdi. Sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı müstəqil Azərbaycanın paytaxtı elan olundu. Bununla da bütün Şimali Azərbaycan ərazisi Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hakimiyyəti altına keçdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdükdən sonra, 1918-ci il oktyabrın 6-da Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci hökumətdə dəyişikliklər edildi və vəzifələr yenidən bölüşdürüldü. ***Fətəli xan Xoyski*** - Nazirlər Şurasının sədri; ***Behbud xan Cavanşir*** - daxili işlər naziri vəzifəsi ilə yanaşı, ticarət və sənaye naziri vəzifəsini də icra edir; ***Əlimərdan bəy Topçubaşov*** - xarici işlər naziri; ***Məmməd Həsən Hacınski*** - maliyyə naziri; ***Nəsib bəy Yusifbəyli*** - xalq maarifi naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri; ***Xosrov Paşa bəy Sultanov*** - əkinçilik və dövlət əmlakı naziri; ***Ağa*** *Aşurov* - poçt və teleqraf naziri; ***Xəlil bəy Xasməmmədov*** - ədliyyə naziri; ***Xudadat bəy Rəfibəyli*** - xalq səhiyyəsi naziri; ***Musa bəy Rəfiyev*** - himayədarlıq və dini etiqad naziri; ***İsmayılxan Ziyadxanov*** - hərbi işlər üzrə müvəkkil; ***Əbdüləli bəy Əmircanov*** - dövlət müfəttişi.

Bakıya köçdükdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti istər ictimai-siyasi, istərsə də təsərüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başladı. Müəssislər Məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, daxili işlər və xalq maarifi nazirlərindən ibarət komissiya yaradıldı. 1918-ci il noyabrın 9-da Azərbaycan hökuməti Fətəli xan Xoyskinin təqdimatı ilə ölkənin üçrəngli bayrağını təsdiq etdi.

1918-ci il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başladı. Milli Şuranın sədri tərəfindən imzalanmış "Bütün Azərbaycan əhalisinə!" müraciəti noyabrın 29-da dərc edildi. Həmin qanuna əsasən, 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Nikolayev küçəsindəki (indiki İstiqlaliyyət küçəsi) qız məktəbinin binasında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclası keçirildi. İclas Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin giriş nitqi ilə açıldı. Parlamentin rəhbər orqanları seçildikdən sonra hökumətin fəaliyyəti barədə məruzə üçün söz Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri Fətəli xan Xoyskiyə verildi. O, öz hökumətinin çox mürəkkəb tarixi şəraitdə gördüyü işlər barədə geniş hesabat verdi.

Fətəli xan Xoyski öz hökumətinin istefasını qəbul etməyi yeni yaranmış Parlamentdən xahiş etdi. Parlament ikinci hökumətin istefasını qəbul etdi. Yeni - üçüncü hökumət kabinəsinin təşkili və ona rəhbərlik yenə də Fətəli xan Xoyskiyə tapşırıldı.

Dekabrın 26-da Fətəli xan Xoyski ***üçüncü hökumət kabinəsinin*** proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Müzakirələrdən sonra Parlament Fətəli xan Xoyski hökumətinə etimad göstərdi. Hökumətdə Fətəli xan Xoyski Baş nazir portfeli ilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutdu.

Fətəli xan Xoyskinin təşkil etdiyi hökumət kabinəsi ilə əlaqədar olaraq general Tomson bəyan etdi ki, «Fətəli xan Xoyski başda olmaqla yeni koalisiyalı hökumətin təşkili ilə əlaqədar elan edirəm ki, müttəfiqlərin komandanlığı bu hökuməti Azərbaycan ərazisində yeganə legitim yerli hakimiyyət orqanı kimi tanıyır və onu tamamilə müdafiə edir». Məmməd Həsən Hacınskinin Azərbaycan nümayəndə heyətinin tərkibində Paris sülh konfransına getməsi ilə əlaqədar 1919-cu il yanvarın ikinci yarısından dövlət nəzarəti naziri vəzifəsini Əlağa Həsənov icra etmişdir.



Ölkədə möhtəkirliyin və qiymətlərin artdığı, əhalinin bir qisminin sürətlə varlandığı, digər qisminin isə var-yoxdan çıxdığı bir şəraitdə Parlamentdə müxalifətdə olan «İttihad», «Əhrar», «Sosial-demokrat» fraksiyalarının üzvləri hökuməti bu işdə fəaliyyətsizlikdə təqsirləndirməyə başladı. 1919-cu ilin yanvar-fevral aylarında keçirilən Parlament iclaslarında onlar tərəfindən Fətəli xan Xoyski hökuməti kəskin surətdə tənqid edilirdi.

Haqsız tənqidlərlə barışmayan Fətəli xan Xoyski öz hökumətinin istefası barədə Parlamentə məktub göndərir. Parlamentin fevralın 25-də keçirilmiş iclasında Xoyski hökumətinin istefası qəbul olunur.

Yeni - ***dördüncü hökumət kabinəsinin*** təşkili Nəsib bəy Yusifbəyliyə tapşırıldı. 1919-cu il aprelin 14-də o, yeni yaratdığı kabinənin üzvlərini Parlamentə təqdim etdi. ***Nəsib bəy Yusifbəyli*** təşkil etdiyi hökumətdə Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini tutdu. Digər vəzifələr aşağıdakı kimi bölündü: ***Əlağa Həsənov*** - maliyyə naziri; ***Ağa Əminov*** - ticarət və sənaye naziri; ***Məmməd Yusif Cəfərov*** - xarici işlər naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri; ***Camo bəy Hacınski*** - poçt və teleqraf naziri; ***Səməd bəy Mehmandarov*** - hərbi nazir; ***Viktor Klenevski*** - himayədarlıq naziri; ***A.Dastakov*** - səhiyyə naziri; ***Rəşid xan Qaplanov*** - maarif və dini etiqad naziri; ***Aslan bəy Qardaşov*** - əkinçilik və dövlət əmlakı *naziri;* ***Nəriman bəy Nərimanbəyli*** - dövlət nəzarəti naziri; ***Aslan bəy Səfikürdski*** - ədliyyə və əmək naziri; ***X.Amaspür*** - portfelsiz nazir. Sonradan ***Məmməd Həsən Hacınski*** daxili işlər naziri olmuşdur.

Parlamentin 14 aprel tarixli iclasında çıxış edən Nəsib bəy Yusifbəyli elan etdi ki, xarici siyasət sahəsində onun kabinetinin başlıca məqsədi Azərbaycanın istiqlaliyyətinin böyük dövlətlər tərəfindən tanınması və dövlətin ərazi bü-tövlüyünü qoruyub saxlamaq uğrunda mübarizə, daxili siyasət sahəsində isə hər bir mədəni və demokratik ölkə üçün zəruri olan söz, mətbuat, yığıncaq və başqa azadlıqların təminatı, fəhlələrin əməklə, kəndlilərin torpaqla təminatı olacaqdır.

Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi hökumət öz fəaliyyəti dövründə xaricdən Denikin ordusu, daxildən isə bolşeviklərin Azərbaycana qarşı törətdikləri təhlükələrlə üzləşmişdi.

1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi fövqəladə vəziyyət haqqında qərar qəbul etdi. Ölkədə Denikin təhlükəsinə qarşı səfərbərlik elan olundu.

1920-ci il dekabrın 22-də özünün ikinci, Cümhuriyyətin isə sayca ***beşinci hökumət kabinəsini*** təşkil edən Nəsib bəy Yusifbəyli həmin hökumətə 1920-ci il martın axırına qədər başçılıq etdi.

Nəsib bəy Yusifbəylinin baş nazir olduğu dövrdə Azərbaycan xalqının tarixində ən mühüm hadisə Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin Paris sülh konfransındakı gərgin əməyi sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqilliyinin böyük dövlətlər tərəfindən de-fakto tanınması olmuşdur. Bu dövrdə, həmçinin Bakı Dövlət Universiteti açıldı. Müxtəlif ixtisaslar üzrə ali təhsil almaq üçün 100 nəfərə yaxın azərbaycanlı gənc Avropanın müxtəlif ali məktəblərinə göndərildi. Torpaq islahatları haqqında 29 maddədən ibarət qanun layihəsi hazırlanaraq, 1920-ci ilin fevralında ümumxalq müzakirəsinə verildi.

1920-ci il martın sonunda Sovet Rusiyası tərəfindən xarici təhlükənin artdığı və işğal üçün zəmin hazırlayan daxili qüvvələrin fəallaşdığı şəraitdə Nəsib bəy Yusifbəyli hökuməti istefa verməli oldu. Yeni hökumətin təşkili Məmməd Həsən Hacınskiyə tapşırıldı. Onun Parlamentdəki fraksiyalarla apardığı danışıqlar müsbət nəticə vermədi.

Yaranmış əlverişli şəraitdən istifadə edən Sovet Rusiyasının 11-ci Qırmızı ordusu beynəlxalq hüquq normalarını kobudcasına pozaraq və qabaqcadan hazırlanmış hərbi müdaxilə planına uyğun olaraq (bax, *Bakı əməliyyatı)* 1920-ci il aprelin 27-də Azərbaycanın sərhədlərini keçərək, Bakıya doğru hərəkət etdi. Aprelin 27-də gündüz saat 12-də AK(b)P MK, Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan hökumətinə və Parlamentinə hakimiyyətin bolşeviklərə təhvil verilməsi barədə Həmid Sultanov tərəfindən ultimatum təqdim olundu. Elə həmin günün axşamı yaranmış şəraiti və bolşeviklərin ultimatumunu müzakirə edən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin son iclası dinc əhali arasında qan tökülməməsi üçün hakimiyyəti bolşeviklərə təhvil vermək haqqında axşam saat 11-də qərar qəbul etdi. Hakimiyyəti təslim edərkən Azərbaycan Parlamentinin əsas tələblərindən biri keçmiş hökumət üzvlərinin təqib olunmayacağı idi. Lakin bolşeviklər hakimiyyəti ələ keçirdikləri ilk gündən keçmiş hökumət üzvlərinin həbsinə və repressiyaya başladılar. **Sovet qoşunlarının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk gündən onun süqutu gününə qədər fasiləsiz fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin** fəaliyyətinə son qoyuldu (bax, həmçinin *Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti).*

***Ədəbiyyat.:*** Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. (stenoqrafık hesabat), c.1-2, B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Адрес-календары Азербайджанской Республики на 1920 год, Б., 1920; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

## "Azərbaycan dövlətinin iqtisadi siyasətində şəffaflıq" mövzusunda konfrans keçirilib



Fevralın 28-də Auditorlar Palatasında "Azərbaycan dövlətinin iqtisadi siyasətində şəffaflıq" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda çıxış edən Auditorlar Palatasının sədri Vahid Novruzov ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş demokratik, dünyəvi dövlət quruculuğu və bazar prinsiplərinə əsaslanan sosial-iqtisadi inkişaf siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini deyib. Qeyd edib ki, bu siyasət Azərbaycanın dünya təsərrüfat sisteminə uğurla inteqrasiya etməsinə möhkəm zəmin yaradıb. Bunun nəticəsində ölkənin iqtisadi qüdrətinin daha da artırılması, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, istehsal və infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə edilib. Konfransın məqsədi ölkəmizdə uğurla həyata keçirilən iqtisadi islahatlar və şəffaflığın artırılması sahəsində görülən işlər ətrafında müzakirələr aparmaqdan ibarətdir. "Azərbaycan auditinin əldə etdiyi uğurların ölkəmizin iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət etməsi auditin inkişafına güclü siyasi dəstəyin mövcudluğu ilə əlaqədardır", - deyə V.Novruzov diqqətə çatdırıb.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə ölkəmizdə şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizədə, iqtisadiyyatın inkişafında auditin əhəmiyyətli rolundan danışıb.

## "Sərgi-satış yarmarkalarının keçirilməsi kiçik sahibkarlığın inkişafına dəstək olacaq"



Bunu jurnalistlərə müsahibəsində iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib.

Ölkədə əsas prioritet istiqamətlərdən birinin sahibkarlığın inkişaf etdirilməsi olduğunu xatırladan nazir müavini bildirib ki, İqtisadiyyat Nazirliyi tərəfindən bu istiqamətdə silsilə tədbirlər həyata keçirilir. "Bu gün əsas məqsədlərdən biri iri şirkətlərlə kiçik sahibkarların əməkdaşlığının qurulması, eyni zamanda, iri şirkətlərlə kiçik şirkətlər arasında birgə layihələrin həyata keçirilməsi, iri şirkətlər tərəfindən müəyyən sifarişlərin kiçik şirkətlərə verilməsi, müəyyən startapların maliyyələşdirilməsində iri şirkətlərin iştirakıdır", - deyən nazir müavini bildirib ki, ölkəyə geniş turist axınını nəzərə alaraq, otellərdə kiçik şirkətlərin istehsal etdikləri məhsulların, xüsusilə dekorativ xalq tətbiqi sənətkarlığı məhsullarının, müasir qablaşdırılmış kənd təsərrüfatı məhsullarının sərgi-satış yarmarkalarının təşkil edilməsi kimi məsələlər gündəmdədir.

Hesab edirəm ki, burada kiçik sahibkarların istehsal etdikləri məhsulların sərgi-satış yarmarkasının təşkil olunması kiçik sahibkarlığa bir dəstək və töhfədir.

## Çindən İtaliyaya yola düşən yük qatarı Bakı-Tbilisi-Qars dəmir yolu ilə hərəkət edəcək



Çinin Urumçi şəhərindən İtaliyanın Neapol şəhərinə yola düşən yük qatarı Bakı-Tbilisi-Qars dəmir yolu ilə hərəkət edəcək.

AZƏRTAC "chinadaily.com" saytına istinadla xəbər verir ki, Urumçidən yola düşən "X9403" nömrəli yük qatarı ilə pomidor məhsulları daşınır. 44 konteynerdən ibarət yük qatarı fevralın 26-da yola çıxıb, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək İtaliyanın Neapol şəhərinə gedəcək.

Məlumatda bildirilir ki, qatar 10 min 500 kilometrlik məsafəni 25 gün müddətində başa vuracaq. Çindən Avropa istiqamətinə bu il Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 1400 konteyner göndərilməsi planlaşdırılıb.

## Aktaudakı Logistika Mərkəzi Azərbaycan məhsullarının Mərkəzi Asiyaya ixracı üçün əlverişli şərait yaradır



Azərbaycan və Qazaxıstan arasında siyasi və iqtisadi əlaqələrin yüksək səviyyədə olması, qarşılıqlı hörmət və tərəfdaşlıq prinsiplərinə əsaslanması ölkələrimiz arasında bir sıra iqtisadi layihələrin uğurla reallaşdırılmasına şərait yaradır. Belə layihələrdən biri də "Aktau Dəniz Limanı" Xüsusi İqtisadi Zonasında yerləşən "Azərsun İstehsal və Logistika Mərkəzi"dir.

Təməli 2014-cü il iyunun 28-də qoyulan və 2015-ci ilin dekabrında fəaliyyətə başlayan "Azərsun İstehsal və Logistika Mərkəzi"nin ümumi anbar sahəsi 8730 kvadratmetr olan quru və soyuducu anbarlar və digər infrastrukturdan ibarətdir. Dəyəri 20 milyon ABŞ dolları olan Logistika Mərkəzi Almaniya, Niderland, İtaliya, Yaponiya və Türkiyə istehsalı olan müasir sistemlər, müxtəlif anbar avadanlıqları, iri və kiçiktonnajlı nəqliyyat vasitələri ilə təchiz edilib.

2017-ci il aprelin 4-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Aktau şəhərində "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "Azərsun Holdinq"in birgə layihəsi olan "Azərsun İstehsal və Logistika Mərkəzi" ilə tanış olub. Nursultan Nazarbayev Azərbaycan və Qazaxıstan dövlət başçılarının bu Logistika Mərkəzinin inşası ilə bağlı tapşırığının qısa müddətdə və keyfiyyətli icrasını yüksək qiymətləndirmişdi.

Logistika Mərkəzinin fəaliyyət dövründə əldə etdiyi nəticələr barədə məlumat verən "Azərsun İstehsal və Logistika Mərkəzi"nin direktoru Ələkbər Muradov AZƏRTAC-a bildirib ki, mərkəz Azərbaycan, Gürcüstan, Qazaxıstan, İran və digər ölkələrin şirkətləri ilə işgüzar əlaqələr qurub, əməkdaşlıq müqavilələri bağlayıb. Yaxın gələcəkdə ərəb dövlətləri, Çin və digər ölkələrlə də işgüzar əlaqələr qurmağı planlaşdırır.

Mərkəzin işi barədə danışan Ə.Muradov məlumat verib ki, dondurulmuş mallar konteyner və vaqonlarla "Azərsun İstehsal və Logistika Mərkəzi"nə gətirilir, müəyyən sənədləşmə proseduralardan keçənə qədər soyuducu kameralarda saxlanılır, daha sonra isə digər nəqliyyat vasitələrinə yüklənir və həm Qazaxıstanın müxtəlif şəhərlərinə, həm də tranzit yük qismində digər ölkələrə göndərilir. İl ərzində orta hesabla 6000 ton dondurulmuş mal və 6000 ton quru mal qəbul edilib və ünvanlara çatdırılıb.

"Azərsun İstehsal və Logistika Mərkəzi"nin liman şəhəri Aktauda yaradılması təsadüf deyil. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Aktau limanına daxil olan yüklərin sayının artmasına səbəb olub. Bu yüklərin müəyyən hissəsi "Azərsun İstehsal və Logistika Mərkəzi"nin payına düşür.

Mərkəz fəaliyyət göstərdiyi müddət ərzində həm yerli, həm də xarici şirkətlərlə işgüzar əlaqələr qurub. Logistika Mərkəzinin fəaliyyətinin Azərbaycan-Qazaxıstan iqtisadi əlaqələrinin inkişafına müsbət təsir göstərməsi danılmazdır. Regionda "A" səviyyəsinə cavab verən Logistika Mərkəzinin olması digər müvafiq müəssisələrin açılmasına və kənd təsərrüfatının inkişafına da təkan verib. Logistika Mərkəzi Azərbaycanda istehsal olunan sənaye, kənd təsərrüfatı və ərzaq məhsullarının Qazaxıstan və digər Mərkəzi Asiya ölkələrinə, həmçinin Qazaxıstan mallarının ölkəmizə ixracı üçün əlverişli şərait yaradır. Azərbaycan və Qazaxıstan arasında iqtisadi ticarət əlaqələrinin və regionda nəqliyyat infrastrukturunun inkişafı, beynəlxalq yükdaşımalarının artırılması baxımından Logistika Mərkəzinin fəaliyyəti xüsusilə əhəmiyyətlidir.

Qeyd edək ki, 25 faizi dövlətə məxsus olan "Azərsun İstehsal və Logistika Mərkəzi" Azərbaycanın xarici ölkələrdə ilk logistika mərkəzidir.

## "SOCAR Karbamid" zavodunda ilk məhsulun istehsalı avqustda nəzərdə tutulur



Bu barədə SOCAR məlumat yayıb. Bildirilir ki, "SOCAR Karbamid" zavodunda tikinti işləri sona çatmaq üzrədir və bir aydan sonra artıq sınaq-sazlama işlərinə başlanılacaq. Zavodda ilk məhsul - ammonyakın istehsalı bu ilin avqust ayında planlaşdırılır. Cari ilin oktyabr ayında isə zavodun yekun məhsulu - azot gübrəsi (karbamid) istehsal olunacaq. İstehsal ediləcək karbamidin təxminən 150 min tonu daxili tələbatı tam təmin edəcək və nəticədə Azərbaycanda gübrənin idxalına illik sərf olunan 55 milyon dollar vəsait ölkə daxilində qalacaq. Məhsulun qalan 450-500 min tonluq həcmi isə ixrac üçün nəzərdə tutulur, bu da ölkəyə əlavə valyuta vəsaitinin gətirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Karbamid zavodunun inşası layihəsi "2008-2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na əsasən hazırlanıb. Zavodun inşası zamanı 3 min nəfər, müəssisə fəaliyyətə başladıqdan sonra isə 500 nəfər işlə təmin olunacaq. Ötən ilin yanvarında SOCAR "Karbamid zavodu" layihəsinin maliyyələşdirilməsi üçün Koreya Respublikasının "İxrac-İdxal Bankı"ndan vəsait cəlb edib. Bank zavodun inşasına 500 milyon avro məbləğində kredit ayırıb. Sumqayıtdakı Azot gübrəsi - karbamid istehsalı zavodunun layihəsi 2013-cü il martın 13-də SOCAR və Koreya Respublikasının "Samsung Engineering Co., Ltd." şirkəti arasında imzalanan mühəndislik, satınalma və tikinti üzrə müqaviləyə əsasən həyata keçirilir. Daxili tələbatın tam ödənilməsi ilə yanaşı, gələcəkdə istehsal olunan karbamid məhsulunun müəyyən hissəsi Türkiyəyə və SOCAR-a məxsus Kulevi terminalı vasitəsilə dünya bazarlarına ixrac ediləcək. Zavod ammonyak, maye və dənəvər karbamid istehsalı bölmələrindən ibarət olacaq.

Sutkada 2 min ton karbamid istehsal edən zavod kənd təsərrüfatının davamlı inkişafına böyük töhfə verəcək, işsizlik probleminin aradan qaldırılmasına müsbət təsir göstərəcək. Layihənin dəyəri 700-750 milyon avro məbləğində qiymətləndirilir. Finlandiyanın "Neste Jacobs Oy" şirkəti "Karbamid zavodu" layihəsi üzrə layihənin idarəedilməsi və müstəqil təftiş xidmətləri göstərir.

Karbamid zavodunun illik gəlirinin 140-150 milyon dollar olması planlaşdırılır.

## SOCAR: "Azərikimya"dakı yenidənqurma işlərinin gələn il tamamlanması planlaşdırılır



SOCAR-ın "Azərikimya" İstehsalat Birliyindəki (İB) yenidənqurma işlərinin gələn il tamamlanması planlaşdırılır.

Bu barədə SOCAR məlumat yayıb. Bildirilir ki, hazırda "Azərikimya" İB-də texnoloji qurğuların yenilənməsi üzrə işlər davam edir. Bununla yanaşı, müəssisədə yeni qurğuların və yardımçı sahələrinin inşası aparılır. "Azərikimya" üzrə yenidənqurma işlərinin 2019-cu ildə tamamlanması nəzərdə tutulur.

## "SOCAR Turkey" və BP yeni müqavilə imzalayıb

BP və "SOCAR Turkey Enerji A.Ş." (STEAŞ) yeni müqavilə imzalayıb. Bu barədə BP məlumat yayıb. BP və STEAŞ BP-nin yeni nəsil PTA texnologiyası üçün lisenziya müqaviləsi imzalayıblar.

STEAŞ 2023-cü ilədək yekun investisiya qərarı qəbul edilənə qədər Türkiyənin Aliağa rayonunda illik 900 min ton tutuma malik yeni texnologiya qurmaq niyyətindədir. "BP bu texnologiyanı Türkiyədə lisenziyalaşdırmaq və həyata keçirmək üçün STEAŞ ilə uzunmüddətli əlaqələr qurmaqdan məmnundur", - deyə "BP Petrochemicals" baş əməliyyat direktoru Rita Griffin bildirib.

STEAŞ –ın əməliyyatlar üzrə departamentinin rəhbəri Emil Eminov deyib: "Bu investisiya Aliağada "Star" neft emalı və "Petkim" zavodlarının yaxınlığında qurulacaq yeni kompleks üçün rəqabətədavamlı, strateji və əlavə dəyər zənciri yaratmaq planımızın bir hissəsidir".

Qeyd edək ki, SOCAR-ın Türkiyəyə planlaşdırılan sərmayələri ümumilikdə 19,5 milyard dollar civarındadır. Bu, 2020-ci ilə qədər nəzərdə tutulan investisiyaların ümumi həcmidir. Son 9 ildə şirkət 19,5 milyard dollarlıq investisiyanın 12,6 milyard dollarlıq hissəsini sərf edib. SOCAR qalan vəsaiti isə 2020-ci ilədək xərcləyərək Türkiyənin ən böyük xarici investoru olmağı hədəfləyir.

Hazırda SOCAR və digər Azərbaycan investisiyaları Türkiyəyə qoyulan birbaşa xarici sərmayənin 51 faizini təşkil edir. SOCAR-ın Türkiyədəki layihələrində ümumilikdə 35 min nəfər çalışır. Şirkət "Petkim", "Star" neft emalı zavodu, TANAP kimi nəhəng layihələri ilə Türkiyə iqtisadiyyatına öz töhfəsini verir. STEAŞ-ın, həmçinin "Petlim", "Petkim" külək elektrik stansiyası (Petkim RES), "SOCAR Dağıtım" ve "SOCAR Depolama" kimi şirkətləri fəaliyyət göstərir.

SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir. STEAŞ-ın səhmdarları isə belədir: SOCAR - 87 faiz, "Goldman Sachs" - 13 faiz.

## Qida Təhlükəsizliyi İnstitutunun fəaliyyət sahələri müəyyənləşir

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun fəaliyyət sahələri müəyyənləşir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun yaradılması nəzərdə tutulub.

Qida Təhlükəsizliyi Agentliyindən AZƏRTAC-a bildiriblər ki, Nizamnaməsi və strukturu hazırlanmaqda olan İnstitut qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktik araşdırmalar aparacaq, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsi həyata keçirəcək, qida təhlükəsizliyi sahəsində normativ-texniki aktların layihələrini hazırlayacaq, qida məhsullarına dair beynəlxalq standartların qida məhsullarının istehsalçıları tərəfindən könüllü tətbiqi, qida məhsullarının təhlükəsizliyi göstəriciləri üzrə tədqiqat xidmətləri göstərəcək.

Dünya praktikasında Avropa ölkələrində, Amerikada həm dövlət səviyyəsində, həm də müstəqil olaraq analoji institutlar mövcuddur. Qida sahəsində xüsusilə elmi araşdırmaların aparılmasında bu institutların çox böyük əhəmiyyəti var. Beynəlxalq təcrübədən məlum olduğu kimi, belə institutların tədqiqatlarının mərkəzində, hər hansı qida məhsullarının insan orqanizminə təsiri üzrə çoxillik araşdırmalardan tutmuş, qablaşdırmalar, qida əlavələri, müxtəlif məhsulların inqrediyentlərinədək qida təhlükəsizliyinin bütün aspektlərinin öyrənilməsi durur, təcrübələr qoyulur, alınan nəticələr növbəti mərhələlərdə standart və tələblərin yaradılması üçün əsas və istinad rolu oynayır.

# В Азербайджане необходимо отменить сдачу отчетов в Госфонд соцзащиты



Сдача отчетов в Государственный фонд социальной защиты является лишней процедурой и ее нужно отменить, считает министр труда и социальной защиты населения Азербайджана Салим Муслимов.

Как отметил министр во вторник, отвечая на вопросы журналистов, если отчисления гражданина в ГФСЗ выражаются в абсолютных цифрах, то он должен быть освобожден от сдачи отчета в фонд.

"В данном случае срок деятельности гражданина, сумма отчислений и оставшаяся задолженность известны. Но данный вопрос необходимо уточнить с юридической точки зрения. Как вы знаете, пеня и санкция сегодня применяются на основе отчетов. Сдав отчет, гражданин подтверждает, что у него есть задолженность, и после этого к нему применяется пеня или финансовые санкции. То есть, санкции признаются обоими сторонами. Но отмена отчетности приведет к тому, что финансовые санкции будут применяться в одностороннем порядке. Поэтому мы сегодня работаем над юридическими аспектами данного вопроса", - отметил Муслимов.

В настоящее время ставка отчислений на обязательное социальное страхование в Азербайджане формируется из двух источников: отчислений, производимых работодателем в размере 22 процентов от фонда зарплаты по предприятию, а также удержаний в три процента из зарплаты самого работника.

Индивидуальные предприниматели, занятые в торговле, транспорте, строительстве, ежемесячно платят на обязательное соцстрахование 50 процентов от минимальной зарплаты, а в других сферах деятельности - 20 процентов.

# ТАПИ будет служить благосостоянию не только стран-участников проекта, но и всего региона



На днях состоялась закладка строительства афганского участка газопровода Туркменистан-Афганистан-Пакистан-Индия (ТАПИ). В проведенной в Туркменистане церемонии закладки транснационального газопровода принял участие министр энергетики Азербайджана Пярвиз Шахбазов. Министр ответил на вопросы специального корреспондента АЗЕРТАДЖ, командированного в Серхетабад для освещения мероприятия.

- Какова позиция Азербайджана относительно проекта газопровода Туркменистан-Афганистан-Пакистан-Индия (ТАПИ)? Как вы оцениваете его значимость для стран-участников проекта и всего региона?

- Я думаю, что диверсификация очень важна как для стран-производителей, так и для стран-потребителей энергоресурсов. Четыре государства - Туркменистан, Афганистан, Пакистан и Индия совместно осуществляют этот крупный региональный проект. Естественно, что он будет в пользу этих стран: будет служить развитию экономики, положительно скажется на социальном положении людей. То есть, от реализации проекта в первую очередь получат выгоду эти четыре государства. Думаю, что данный проект будет служить благосостоянию не только стран-участников проекта, но и всего региона. Я здесь пообщался с представителями ряда стран. В перспективе к этому проекту планируют примкнуть и другие государства.

- Европейский Союз заинтересован в туркменском газе. Он ведет переговоры с Туркменистаном относительно присоединения ТАПИ к Южному газовому коридору. Насколько реальна эта идея?

- Переговоры на эту тему ведутся давно. По данному вопросу имеются особые форматы. Один из них – это переговоры, которые Европейский Союз ведет с Турцией, Азербайджаном и Туркменистаном. Как вы знаете, строительство Южного газового коридора ведется успешно, и даже с опережением графика. Проект уже вступает в завершающий этап. В последнее время повысился интерес Туркменистана к этому проекту. Участие советника Президента Туркменистана Яхшыгельды Какаева в четвертом заседании министров в рамках Консультативного совета Южного газового коридора в Баку можно считать показателем этого интереса. Интерес к проекту наглядно отражен и в его выступлении на заседании. Это очень положительный факт. Азербайджан и Туркменистан, как соседние государства, успешно взаимодействуют в области энергетики. Например, туркменская нефть транспортируется в Европу по основном экспортному нефтепроводу Баку-Тбилиси-Джейхан. Мы имеем ряд интересных проектов. Думаю, что проявление интереса Туркменистана к Южному газовому коридору очень положительный факт, и возможности присоединения Туркменистана к проекту реальны.

# Человеческие ресурсы – внутреннее богатство компании Norm

Завод Norm Sement является крупнейшим цементным заводом на Южном Кавказе. Продукция завода характеризуется высоким качеством, надежностью, термостойкостью и простотой использования. Завод оснащен автоматизированным оборудованием европейских производителей. В проект привлечены ведущие мировые специалисты в цементной промышленности.

Несмотря на свой молодой возраст, завод Norm Sement, являющийся ведущим производителем цемента в Азербайджане, превратился в лидера рынка в своей сфере. За период своей деятельности компания Norm уделяет особое внимание развитию внутренних человеческих ресурсов, повышению профессионализма, реализации социально значимых проектов. Ежегодно компания создает для студентов высших учебных заведений возможности для прохождения практики. С этой целью ведутся переговоры с высшими учебными заведениями в стране, устанавливаются связи с центрами планирования карьеры, ведется сотрудничество с соответствующими факультетами университетов и институтов, в которых такие центры отсутствуют, наряду с бакалаврами приглашаются магистры для накопления опыта работы.

Основной целью проекта является подготовка молодежи Азербайджана к трудовой жизни. В прошлом году в образовательном центре Norm 18 студентов прошли практику. В течение года на заводе были проведены 4 экскурсии для студентов Экономического университета, и тренинги для студентов сообщества «Молодых инженеров», Университета Хазар, Государственного Университета Нефти и Промышленности. С текущего года реализация этого проекта продолжается в более широкой форме. Компания также принимает активное участие на ярмарках, проводимых в высших учебных заведениях, и предоставляет вакансии для студентов в открытой форме.

Главной задачей деятельности Департамента человеческих ресурсов компании является создание возможности для полного и правильного использования работниками своих личных прав, добросовестное и справедливое отношение к ним, обеспечение здоровых и безопасных условий труда.

# В Китае построили самый длинный морской мост в мире



В Китае завершено строительство самого длинного морского моста в мире. В феврале госкомиссия разрешила начать его испытания.

Мост связал Гонконг, Чжухай и Макао. Длина сооружения, которое включает в себя три искусственных острова и подводный тоннель протяженностью 55 километров, который также является самым длинным в мире. Строительство моста длилось восемь лет.

Стоимость проекта оценивается в 110 миллиардов юаней (почти 16 миллиардов долларов США). Мост, по словам его создателей, способен выдержать землетрясение в 8 баллов и должен прослужить как минимум 120 лет. Для движения транспорта мост планируют открыть во второй половине 2018 года.

# Суд ЕС признал Польшу виновной в систематических нарушениях экологических норм

Европейский суд юстиции признал Польшу виновной в систематических нарушениях норм загрязнения воздуха ЕС из-за чрезмерного использования угля в энергетике страны. Об этом говорится в опубликованном в четверг решении Европейского суда юстиции по иску Еврокомиссии против правительства Польши.

«Суд признал, что Польша на постоянной основе нарушала экологические нормы чистоты воздуха с 2007 по 2013 год и не представила программы мер по исправлению ситуации», - говорится в документе.

Решение суда может стать основанием для введения новых европейских штрафных санкций против Варшавы.

По данным Всемирного банка, доля угля в энергогенерации Польши составила в 2015 году 82 процента, что является одним из самых высоких показателей в Евросоюзе. В настоящее время, несмотря на появление новых технологий угольной энергогенерации, уголь остается наиболее «грязным» видом углеводородного топлива, но продолжает широко использоваться в Польше, обладающей значительными природными запасами этого топлива.




# Немецкий эксперт рассказал о борьбе Германии с изменением климата

Берлинский бизнес-консультант Хайко Ломан - известный немецкий специалист по газовому рынку Германии и Евросоюза, автор многочисленных публикаций и нескольких книг - выступил в СМИ со своим видением о последствиях борьбы с изменением климата для газового рынка ФРГ, «Северном потоке-2» и будущей роли сжиженного газа в Европе.

Он напомнил, что «Газпром» второй год подряд поставляет в Германию рекордные объемы газа. Поскольку цены на российский газ в настоящее время конкурентоспособны, вполне возможно, что «Газпром» сохранит объемы поставок в Германию примерно на нынешнем уровне.

Германия, действительно, является центром распределения газа, и часть поступающих объемов идет затем в другие страны. Но в 2017 году вырос и внутренний спрос, прежде всего - благодаря увеличению газовой генерации электроэнергии.

Однако в Германии газ идет главным образом на производство тепла, тогда как в немецкой электроэнергетике его доля невелика - всего 13 процентов. Может ли она существенно возрасти, если новое правительство Германии, продолжая сворачивать атомную энергетику, одновременно в рамках борьбы против глобального потепления начнет еще и форсированно ограничивать угольную генерацию?

Хайко Ломан считает, что доля газа в электроэнергетике в будущем, скорее всего, увеличится, хотя непонятно, насколько, ведь одновременно будет расти возобновляемая энергетика. Так что бума ждать не следует, но некий рост в ближайшие годы наверняка произойдет, хотя бы потому, что в какой-то момент непременно закроют целый ряд самых старых и наиболее вредных для климата угольных электростанций.

Получается, что «Газпрому» следует всячески поддерживать экологические амбиции правительства Германии и вообще движение за защиту глобального климата. Ломан рекомендует присмотреться к разворачивающейся сейчас в Германии чрезвычайно интересной дискуссии о том, каковы перспективы природного газа после 2030 года.

К 2030 году Германия, выполняя Парижское соглашение по климату, намерена сократить выбросы парниковых газов как минимум на 55 процентов по сравнению с 1990 годом. Поэтому до 2030 года роль газа



как наиболее экологичного ископаемого энергоносителя в какой-то мере возрастет, поскольку первостепенная задача будет состоять в целенаправленном сокращении использования угля, при сжигании которого выделяется особенно много углекислого газа.

Но что будет после 2030 года? Все зависит от решений на политическом уровне. Следующий важный рубеж - 2050 год. Если Германия провозгласит менее амбициозную цель - уменьшить к этому времени выбросы $CO_2$ на 80 процентов, то у газа будут долгосрочные перспективы. Если же задастся целью сократить их на 95 процентов, а это второй обсуждающийся вариант, то неминуем широкомасштабный отказ и от природного газа, ведь при его сжигании все же выделяется $CO_2$, хотя и в значительно меньшей степени.

Эксперт считает, что СПГ (сжиженный газ) обостряет конкуренцию на европейском рынке газа, и это - главное его достоинство. Он не заменит странам ЕС трубопроводный газ, поступающий по долгосрочным контрактам из России, Норвегии или Алжира, но он уже стал фактором, сдерживающим цены на него. И российская компания «Газпром», и норвежская Statoil теперь твердо знают: если трубопроводный газ подорожает до определенного уровня, европейцы могут обратиться к их конкурентам на других континентах, ведь мощностей для регазификации СПГ в Европе предостаточно.

# Pambıq, tütün və şəkər çuğunduru istehsalçılarına veriləcək subsidiyanın məbləği açıqlanıb

Azərbaycanda pambıq, tütün və şəkər çuğunduru istehsalçılarına 22,5 mln. manat subsidiya veriləcək.

Kənd Təsərrüfatı Nazirliyindən Trend-ə verilən məlumata görə, nazirliyin Respublika Komissiyasının sədri, kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin sədrliyi ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik əkininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilib.



Respublika Komissiyasının sədri, kənd təsərrüfatı nazirinin müavini İ.Quliyev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 22 sentyabr tarixli 2350 nömrəli, "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli və "Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında" 2017-ci il 4 aprel tarixli 1314 nömrəli sərəncamları pambıq, tütün və şəkər çuğunduru istehsalçılarının dövlət tərəfindən dəstəklənməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri olub. İkinci ildir ki, istehsalçılara tədarükçülərə təhvil verdikləri xam pambığın hər 1 (bir) kiloqramına (kondisiya çəkisində) görə 0,1 manat, quru tütünün hər 1 (bir) kiloqramına, yaş tütünün isə hər 10 (on) kiloqramına görə 0,05 manat, bu ildən başlayaraq şəkər çuğundurunun hər 1 (bir) tonuna görə 4 manat məbləğində subsidiya verilir.

Respublika Komissiyası 23 rayon (şəhər) üzrə 15389 istehsalçıya təhvil verdikləri 207,2 min ton xam pambığa görə 20719,30 min manat, 10 rayon (şəhər) üzrə 462 istehsalçıya təhvil verdikləri 2,5 min ton quru və 15,5 min ton yaş tütünə görə 201,1 min manat və 28 (şəhər) rayon üzrə 3235 istehsalçıya təhvil verdikləri 396,1 min ton şəkər çuğunduruna görə 1584,6 min manat məbləğində subsidiyanın verilməsi barədə qərar qəbul edib.

Pambıq, tütün və şəkər çuğunduru istehsalçılarına subsidiyanın ödənilməsi məqsədilə müvafiq sənədlər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, "Kapital Bank" ASC-yə və aidiyyəti rayon (şəhər) icra hakimiyyətlərinə və rayon (şəhər) kənd təsərrüfatı idarələrinə göndərilib.

Rayon (şəhər) və kənd ərazi komissiyaları üzrə subsidiya veriləcək pambıq, tütün və şəkər çuğunduru istehsalçılarının siyahısı, onların əkin sahələri, təhvil verilmiş pambıq, tütün və şəkər çuğundurunun miqdarı və hesablanmış subsidiyanın məbəği barədə məlumatlar Nazirliyin rəsmi internet səhifəsinin (http://agro.gov.az) "Subsidiyalar" bölməsində yerləşdiriləcək.

# Əməyin mühafizəsi ilə bağlı yeni fond yaradılır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ölkənin sığorta şirkətləri ilə Əməyin Mühafizəsi Fondunun yaradılması barədə danışıqları davam etdirir.

Bunu Trend-in sualına cavab verərkən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov deyib.

Nazirin sözlərinə görə, bu Fondun yaradılması Əmək Məcəlləsi ilə nəzərdə tutulub və onun yaradılması Azərbaycanda əməyin mühafizəsi sahəsini




təkmilləşdirməyə kömək edəcək:

"Bu gün Azərbaycanda istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta haqqında qanun mövcuddur. Amma bu qanuna görə, sığorta dövlət tərəfindən yox, bu sahədə lisenziyaya sahib olan sığorta şirkətləri tərəfindən həyata keçirilir".

S.Müslümov qeyd edib ki, sığorta təşkilatları Əməyin Mühafizəsi Fondunun yaradılmasında fəal iştirak etməlidir:

"Bu, sığorta şirkətlərinə fondun işində iştirak etməyə və daxilolmalara nəzarət etməyə imkan verəcək. Mən həm də hesab edirəm ki, sığorta şirkətlərinin gəlirlərinin bir hissəsi bu Fonda yönəldilməlidir".

# Azərbaycan "ViroExpo 2018" yarmarkasında təmsil olunub

Azərbaycanın Xorvatiyadakı səfirliyi Virovititsa şəhərində keçirilmiş 23-cü "ViroExpo 2018" şirkət, sənət və kənd təsərrüfatı yarmarkasında iştirak edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, ölkəmiz üçün ayrılmış stenddə Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələrini, investisiya və kənd təsərrüfatı imkanlarını əks etdirən bukletlər, milli mədəniyyətimizi, incəsənətimizi və adət-ənənələrimizi əks etdirən suvenir və əşyalar, xalçalarımız haqqında nəşrlər, "Azərbaycan İxrac Kataloqu", ölkəmizlə bağlı xorvat dilinə tərcümə olunmuş broşürlər, Azərbaycan istehsalı olan şərab və düyü nümunələri nümayiş etdirilib və qonaqlara paylanılıb.

Xorvatiyanın Baş naziri Andrey Plenkoviç, iqtisadiyyat, sahibkarlıq və peşə naziri xanım Martina Daliç, kənd təsərrüfatı naziri Tomislav Toluşiç və digər rəsmi şəxslərin qatıldığı yarmarkada 29 ölkədən 700-dən çox şirkət iştirak edib. Yarmarkada 30 minə yaxın ziyarətçi olub. Tədbirdə ölkəmizlə yanaşı, bir sıra xarici ölkələr, o cümlədən Türkiyə, Albaniya, Avstriya, Belçika, Bosniya və Herseqovina, Monteneqro, Çexiya, Fransa, Hindistan, İtaliya, Çin, Makedoniya, Niderland, Almaniya, Polşa, Rusiya, Slovakiya, Sloveniya, Serbiya, İsveç və Ukrayna təmsil olunublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

***İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması***

# Kiçik pulun böyük dərdi

*"Dama-dama göl olar, qəpik-qəpik yığılıb ağca manat əmələ gələr".*

***N.Vəzirov***

2006-cı ildə Azərbaycan manatının dəyişməsi və dövriyyəyə yeni pul nişanlarının buraxılması ilə kağız pullardan başqa, həm də metal pullar, yəni qəpiklər həyatımıza daxil oldu. Gənc nəsil tərəfindən bu qəpiklər maraqla qarşılansa da, yaşlı nəsil üçün heç də yeni bir şey deyildi. Sovet dövrünü görmüş və ömrünün ən yaddaqalan gənclik çağlarını həmin vaxtlarda keçirmiş bir nəsil üçün bu həm də xoş bir təəssürat idi. Metal əskinaslar da ölkəmiz üçün Sovet dövrü ilə bərabər tarixə qarışmışdı. Onları yenidən görmək isə, bir növ yaşlı nəsildə ötən dövr təəssüratlarını oyadacaq, onlarda gənclik xatirələrini yeniləyəcək incə bir məqam idi. "Bizim vaxtımızda qəpik pullar da vardı" cümləsinə ehtiyac yaratmadan onları yenidən "var" etməklə...

**"Qəpiyə güllə atanlar"**

Bəs, o qəpiklərdən gələcək nəslə də eyni təəssüratlarla bəhs ediləcək şəkildə düzgün istifadə edilirmi? Hətta, daha dəqiq desək, istifadə edilirmi? Söhbət, təbii ki, dəyəri nisbətən yüksək olan 10, 20 və 50 qəpiklərdən deyil, çoxlarının dükan və marketlərdə pulun qalığı şəklində verilərkən götürməyə çəkindiyi, bəzən isə ümumiyyətlə qaytarılmayan 1, 3 və 5 qəpiklərdən gedir.

Hər il tədavülə kifayət qədər metal əskinaslar buraxılır. Onlar da təbii olaraq alış-veriş prosesində istifadə olunur. Amma necə? Son dövrlərdə, demək olar ki, bütün ticarət müəssisələrinin bir parçasına çevrilmiş olan sonu 90, 95, 98, yaxud da 99-la bitən qiymətlərə hər yerdə rast gəlirik. Qidadan geyimə qədər hər bir sahədə artıq bu cür qiymətlərlə rastlaşmamaq, demək olar ki, qeyri-mümkündür. Ən maraqlısı isə bizim də bu qiymətlərə alışmağımızdır.

Çox zaman 1 və ya 5 qəpik deyə istəməyə çəkindiyimiz, hətta almağa belə utandığımız bu xırda pulların necə mahiyyət daşıdığını öyrənmə ehtiyacı belə duymamışıq. Əminəm ki, bir çoxumuz "3 və ya 5 qəpiyin söhbətinimi edəcəm" deyə düşünməmiş deyilik. Buna görə də əslində itirdiyimiz pulların fərqinə belə varmamışıq. Bəs, təqsir kimdədir: hüquqlarının pozulmasına imkan verən istehlakçılardamı, yoxsa bu hüquqları bilərəkdən pozan qarşı tərəfdəmi?

**Pulun qalığımı, yoxsa...?**

Əksər hallarda aldığımız hansısa məhsulun 1, 3, 5, yaxud da 10 qəpiklik qalığını almağa gərək belə duymuruq. Çünki kiçik rəqəmlərlə edilən alış-verişlərdən fərqli olaraq, daha böyük qiymətlərdə o kiçik rəqəmlər çox da nəzərə çarpmır.

Lakin o da məlumdur ki, bir çox ticarət müəssisələri də pulun qalığının qaytarılmasında maraqlı deyillər. Ya xırda pul qalıqlarının olmadıqlarını bildirərək ümumiyyətlə qaytarmır, yaxud da əvəzində o dəyərdə olan hansısa məhsulu (kibrit, xırda konfet, apteklərdə yara sarğısı və s.) verərək, yenə də qarşı tərəfə özünün daha bir məhsulunu satmış və ya daha doğru desək, "sırımış" olur. Burada ticarət müəssisəsi yenə də öz xeyrinə addım atmaqla qarşı tərəfin hüquqlarını pozur. Bəs, istehlakçılar bundan xəbərdardırmı? Onların satıcıya 5-10 qəpiklik əskiyi yarandıqda güzəştə gedilirmi? Təbii ki, istisnalar mövcuddur. Lakin bəzən də 5-10 qəpik üçün daha böyük pulların xırdalanması ehtiyacı yaranır.

**"Məhsul əslində ucuzmuş" təəssüratı yaradılır**

Ən böyük problemlərdən biri isə sonu 99-la bitən qiymətlərdir. Daha çox rastlaşmağımıza baxmayaraq, gözümüzə çox bəsit görünən 1 qəpiklər əslində özlüyündə daha böyük rəqəmləri gizlədir. Belə qiymət siyasəti ilə insanların şüuraltına təsir edir, mövcud məhsulun sadəcə 1 qəpiklə fərqlənən daha əvvəlki sayını göstərməklə "məhsul əslində ucuzmuş" təəssüratı yaradırlar. Yəni, 1,99 AZN göstərildiyi halda, məhsul əslində 2 AZN-ə, 2,99 göstərilib 3-ə, 3,99 göstərilib 4-ə, 9,99 göstərilib 10-a və s. qiymətlərlə satılır. Bu, eyni zamanda, sonu 24, 53, 68, 72, 95 və s. kimi rəqəmlərlə bitən qiymətlərə də aiddir.

Biz etiketə baxdıqda ilk olaraq başdakı tam rəqəmi görürük. Aradakı 1, 5, ya 10 qəpik isə əsl qiyməti görməyimizi çətinləşdirir. Daha böyük rəqəmlərdə də eynilə 1 manatla yüz, bəzən də minlik məbləğlərdən söhbət gedir. Məsələn, hər hansı televizorun qiyməti 599 AZN olaraq qeyd edildiyində bizdə avtomatik olaraq onun 600 deyil də, 500-lə satıldığı təəssüratı yaranır, əslində isə arada sadəcə 1 manat fərqin olduğunu hiss etmirik. Bu cür qiymət siyasəti isə istehlakçını məhsulun ucuz olması düçüncəsi ilə aldadaraq, onun hüquqlarını pozmuş olur.

**Xırda pullar niyə sevilmir?**

Hər alış-verişdə itirdiyimiz 1, 3, yaxud 5 qəpiyin dəyərini bilməməyimizin əsas səbəblərindən biri də istehlakçıya qaytarılmalı olan həmin pulların tədavüldə olmasına baxmayaraq, bazarda, həqiqətən, bu qiymətə hansısa məhsul və ya xidmətin olmamasıdır.




Beləliklə istehlakçı öz büdcəsindən itirir və itirdiyini bərpa edəcək bir məhsul əldə edə bilməyərək, demək olar ki, iki dəfə zərər çəkmiş olur. Təbii ki, burada istehlakçıların da laqeyd davranışı az rol oynamır. Çünki onlar pulun qalığında təkidli olsalar, belə itkilər də aradan qalxar. İstehlakçıların laqeydliyinə diqqət çəkən iqtisadçı ekspert Samir Əliyev isə bunun yalnız bazarda həmin qiymətə çox da məhsul olmaması ilə deyil, bəzən çox maraqlı digər səbəblərlə də bağlı olduğunu bildirir. Belə ki, insanların bir qismi cibində və ya pul qabında xırda qəpiklərin olmasını, demək olar ki, xoşlamır, ona görə də verilən xırda qəpikləri götürmək istəmirlər. Başqa bir qismi isə, qəribə görünsə də, 10, 20 və 50 qəpiklərlə müqayisədə 1, 3 və 5 qəpiklərin rəngini psixoloji olaraq qəbul edə bilmir və necə deyərlər, bu qəpiklərdən "qaçırlar".

Qəpiklərlə bağlı problemdən yalnız alıcılar deyil, bəzən satıcılar da şikayətlənir, qaytarılacaq o qədər xırda pulun olmadığını bildirirlər. Samir Əliyev isə bildirir ki, ölkədə tədavülə kifayət qədər xırda pul buraxılsa da, qiymət miqyası ilə əlaqədar müəyyən çatışmazlıqlar yarana bilər. Lakin bu göstərici də alış-veriş prosesində pulun qalığının qaytarılmamasına əsas vermir. Deməli, bir çox ticarət müəssisələri özləri həmin pullardan istifadədə maraqlı deyillər və bilərəkdən istehlakçı hüquqlarını pozurlar.

**Vergidən yayındırılan məbləğlər**

Əslində sirkulyasiyası böyük olan supermarketlərdə qaytarılmayan qalıq qəpiklərə nəzər yetirdikdə, qeydə alınmayan və vergidən yayındırılmaqla obyekt sahibinin cibinə axan ciddi bir məbləğlə qarşılaşırıq. Nəzərə alsaq ki, bir gündə mağazaya kifayət qədər insan daxil olur, üst-üstə yığılan həmin qəpiklərin heç də az olmadığını görərik.

Təsəvvür edək ki, altı kassalı hər hansı bir supermarketdə hər kassadan gündə azı 50 insan keçir və hər keçən şəxs 1 qəpiyini götürmür. Beləliklə, bir kassada gün ərzində 0,50, altı kassada isə 3 AZN pul yığılır. Bu qalıqlar eyni hesabla toplandıqda ay ərzində 90 AZN, ildə isə 1080 AZN edir. Nəzərə alsaq ki, bu supermarketin də müxtəlif yerlərdə beş şöbəsi fəaliyyət göstərir, onda bu rəqəm il ərzində 5400 AZN-ə bərabər olur.



Bu, sadəcə bir market və yalnız 1 qəpik üçün hesablanmış məbləğdir. Nəzərə alsaq ki, geri alınmayan 3, 5, hətta 10 qəpiklər var, deməli cibimizdən "ruhumuz belə duymadan" çıxarılan və başqa birinin büdcəsinə qanunsuz olaraq yığılan daha böyük rəqəmlərdən söhbət gedir. Maraqlı cəhət budur ki, bəzən hətta qəpiyin qalığını istədikdə oradakı bəzi işçilərin təəccüblü, hətta kinayəli baxışları ilə də rastlaşırsan. Bu, özü də istehlakçı hüquqlarının pozulması deməkdir.

**Çıxış yolu isə...**

Yuxarıda hər hansı müəssisənin timsalında yığılan xırda qəpiklərdən əldə edilən qazancı qeyd etdik. Bir ailəninsə il boyunca etdiyi alış-verişdə qalıq olaraq almadığı qəpiklərdən itirdiyi məbləğ yığıldıqda boşa gedən pulun ümumi miqdarı təxminən 100 AZN-i keçir. Çünki qaytarılmayan və ya götürməyə çəkindiyimiz qəpiklər 1, 2, 3, 4, 5 və s. ola bilir. Aylıq 1000 manatlıq alış-veriş edən bir neçə ailə ayda 10-15 manatını almır ki, bu da nəticədə qeyd etdiyimiz rəqəmə gəlib çıxır.

Ölkə daxilində, eyni zamanda xaricində internet üzərindən alış-verişə şərait yaradan və nağdsız ödəniş etməklə bizi nağd pul gəzdirmək məcburiyyətindən xilas edən plastik kartlar həm də bu cür itkilərə yol verilməsinin də qarşısını almış olur. Çünki plastik kartlarla alış-veriş etdikdə, kassada məbləğ də konkret olaraq çıxılır və heç bir itkiyə yol verilmir.

Alış-verişlərin çox olduğu yerlərdə sahibkarların lehinə, istehlakçıların isə əleyhinə olan bu cür rəqəmlərlə ən əlverişli mübarizə vasitələrindən biri də pulun tam istənilməsi və ödənilməsidir. Eyni zamanda, istehlakçıların bu cür rəqəmlərə aldanıb alış-veriş "dəlisinə" çevrilmələri də bəzən çoxlu sayda lazımsız malların alınması və daha çox itki ilə nəticələnir. İstehlakçılar bu rəqəmlərə aldanmayaraq, hətta mümkünsə rəqəmi daha yuxarı rəqəmə yuvarlayaraq qiyməti nəzərə almalıdırlar. Həmçinin, istehlakçılar pulun qalığında təkidli olmalı, qəpikləri bəyənməzlik etməməlidirlər ki, bu, dini baxımdan da düzgün deyil:

**"Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan!" (Qurani-Kərim, İsra surəsi, 29-cu ayə)**

***Bu yazını yazarkən ətrafımda olan insanların da fikirləri ilə tanış olub, onların məsələyə münasibətini öyrənmək istədim. Xırda pullarla bağlı qiymət siyasətinin bir çoxlarının düşündüyümdən də böyük probleminə çevrildiyini gördüm. Necə deyərlər, bu haqda yazmağım lap ürəklərindən oldu. Görünür, "dama-dama göl olar" məsəlindən kifayət qədər öz xeyirlərinə yararlananlar çox kiçik bir vasitədən belə istifadə edərək, insanların cibinə girir, həm onların hüquqlarını, həm də qanunları pozmaqdan çəkinmirlər. Çox istərdim ki, insanlar özləri bu sahədə hüquqlarını dərk etsinlər və pozulmasına yol verməsinlər.***

**Mətanət Hüseynova**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

## *Ekologiya və ətraf mühitin mühafizəsi*

# Bizim üçün tramvay təkcə relslər və vaqonlar deyildi...

Müasir dünyamızın ən aktual problemlərindən biri nəqliyyat vasitələrinin ətraf mühitə təsiridir. Avtomobil praktiki olaraq biosferin bütün tərkib hissələrinə: atmosferə, su və torpaq resurslarına, litosferə və insana mənfi təsir göstərir.

Bu günün avtomobili qeyri-ekoloji nəqliyyat vasitəsidir. Avtomobil nəqliyyatı bir tərəfdən, atmosferdən oksigeni udur, digər tərəfdən, işlənmiş qazları və karbohidrogenləri havaya buraxır. Ötən əsrin 70-ci illərində avtomobillərin atmosferə buraxdığı çirkli maddələr cəmi 10-15% idisə, hazırda bu göstərici 50%-i keçir, iri şəhərlərdə və meqapolislərdə isə 65-70%-ə çatır. Bundan başqa, atmosferə atılan zərərli maddələrin miqdarı hər il 3% artır və bu ciddi təhlükə doğurur. Bu maddələrin flora və faunaya təsiri nəticəsində təbiətdə baş verən dəyişikliklər ildən-ilə qlobal və miqyaslı xarakter almağa başlayır. Havanın çirkləndirilməsinin 90%-dən çoxu avtomobil nəqliyyatının payına düşür ki, bu da ətraf mühitin çirkləndirilməsində onun lider mövqe tutduğunu göstərir. Bu problemdən bütün canlı aləm əziyyət çəkir. Belə gedərsə, Yer kürəsində mövcud ekosistem dağıla bilər ki, bu da bəşəriyyətin məhvinə gətirər.

Avtomobil nəqliyyatından fəal istifadənin daha bir təhlükəsi turşulu yağışların yağmasıdır. Bu yağışlara səbəb işlənmiş qazların atmosferə buraxılmasıdır. Bu yağıntı təbiətə və insanların sağlamlığına təsir edir, torpağın tərkibini dəyişir, binaları və abidələri dağıdır, su mənbələrini çirkləndirərək onları yararsız hala salır. İlk baxışdan elə görünür ki, bu problemin həlli yolları yoxdur. Amma artıq bir çox ölkələr avtomobilləşmənin ciddi zərərini dərk edərək, problemin həllini alternativ nəqliyyat vasitələrindən istifadədə görürlər. Belə nəqliyyat vasitələri ekosistemə mənfi təsiri olmayan, necə deyərlər, "yaxşı unudulmuş köhnə" – tramvay və trolleybuslar, elektrik qatarlarıdır.

Dünyada ilk tramvaylar XIX əsrin sonu-XX əsrin əvvəllərində şəhərlərin əsas nəqliyyat vasitəsi olmuşdur. Həmin dövrdə onunla layiqli rəqabət apara biləcək nəqliyyat vasitəsi olmayıb.





**Tarixə çevrilmiş Bakı tramvayı**

Vaxt vardı, Bakının küçələrində qırmızı tramvaylar, sarı trolleybuslar şütüyür, elektrik qatarları insanları Bakıətrafı qəsəbələrə, Abşeron bağlarına çatdırırdı. Yaşlı nəslin nümayəndələri yaxşı xatırlayar. Bizim üçün tramvay təkcə relslər və vaqonlar deyildi. İnsanlar tramvayda tanış olar, dostlaşardılar. Tramvayda kitab, qəzet oxuyar, söhbətləşərdilər. O, yaşlıların və uşaqların ən çox sevdiyi nəqliyyat vasitəsi idi.

Sonra dünyanın bir çox ölkələrində olduğu kimi, avtomobilləşmə Bakıda da tramvayı sıxışdırmağa başladı. Tramvayların çox yer tutması, ləng hərəkəti, avtomobillərə mane olması səbəbindən onu tamamilə yox etmək qərara alındı...

Ədalət naminə qeyd edək ki, Bakı dünyada nəqliyyatın bu növündən imtina etmiş yeganə şəhər deyil. İndi belə şəhərlərin çoxu yenidən tramvayı istifadəyə qaytarır. Son onillik Böyük Britaniyada, Fransada, İrlandiyada, İsveçrədə, İtaliyada, İspaniyada, Almaniyada, ABŞ-da əsl tramvay bumu dövrü olmuşdur.

**Bakı tramvayının qısa tarixi**

XX əsrin əvvəlləri. Artıq Rusiyanın bir çox şəhərlərində elektrik cərəyanı ilə tramvaylar işləyirdi. Bakıda isə tramvayın istismarı 1913-cü ildə nəzərdə tutulurdu. Birinci tramvay xətti 27 verst olub (təxminən 29 km), 3 il ərzində tikilməli, Ağ şəhəri, Balaxanı şossesini, Salyan kazarmalarını, Dağlıq hissəni və Bayılı şəhərin mərkəzi ilə birləşdirməli idi. Lakin bu plan həyata keçmədi və yalnız 12 ildən sonra Bakıda ilk tramvaylar görünməyə başladı. 1923-cü ilin yanvar ayında RSFSR Əmək və Müdafiə Şurasının qərarı ilə Bakıda tramvay xəttinin tikintisinə start verildi. Bu işdə bütün ölkə iştirak edirdi. Relslər və bəndlər Yuzov, Makeyev və Yekaterinoslav zavodlarından, vaqonlar Mıtişşi və Kolomensk zavodlarından gətirilir, elektrik və hava-əyləc avadanlıqları Xarkovun "VEK" zavodunda, yeraltı kabellər Moskva Kabel zavodunda hazırlanırdı. Bakı zavodları da bu işdə fəal iştirak edirdilər. Bu tikintiyə bütün şəhər qoşulmuşdu. Birinci xəttin tikintisində on minlərlə Bakı fəhləsi işləyirdi. Bakılıların ruh yüksəkliyi o qədər böyük idi ki, birinci tramvay xətti vaxtından iki ay əvvəl (8 aya) başa çatdı...

Bu tikinti nəinki Zaqafqaziyada, demək olar ki, SSRİ-də nəhəng tikintilərdən biri hesab edilirdi. Nəhayət, 1924-cü il fevralın 8-də Bakı küçələrində Dəmiryol vağzalı ilə Azneft meydanını birləşdirən ilk tramvay göründü. "Bakinski raboçi" qəzeti (10 fevral 1924-cü il) yazırdı: "... İlk saatlar sərnişinlər pulsuz daşınırdı. Bu bayram idi, bütün xalqın əsl, böyük bayramı idi". 1924-cü ilin sonunda Bakı tramvayı 72 vaqonla uzunluğu 35,9 km olan xətdə işləyirdi. 1939-cu ildə isə Bakıda tramvay sisteminin uzunluğu 117 km-ə çatırdı.

1960-cı illərdə Bakıda tramvay sisteminin inkişafı ictimai nəqliyyatın digər növlərindən zəif inkişaf edir, əsas diqqət metro tikintisinə, avtobusların artırılmasına yönəldilirdi. Şəhərin tramvay şəbəkəsi tədricən azalırdı. 1980-ci ildə Bakı tramvay şəbəkəsinin uzunluğu 70 km-ə düşdü. XX əsrin 90-cı illərindən Bakının ictimai nəqliyyat sistemindən tramvay intensiv surətdə sıxışdırılmağa başlandı. 2004-cü ildə tramvay şəbəkəsinin son xətti – metronun Xətai st. – Montin bazarı tamamilə bağlandı və söküldü. Beləcə, Bakı şəhərinin ayrılmaz hissəsi olan zəhmətsevər Bakı tramvayının 80 illik tarixi sona yetdi...

**Tramvay: iqtisadi və ekoloji faydaları**

Beləliklə, müasir şəhər tramvayı nədir və şəhər sakinlərinə onun hansı faydası ola bilər? Tramvaydan istifadənin üstünlükləri hədsizdir. Əvvəla, tramvay sisteminin yaradılması üçün tələb olunan xərclər metro tikintisinə sərf olunan vəsaitin məbləğindən dəfələrlə azdır. İkincisi, tramvayın istismarı avtobusun istismarından xeyli ucuz başa gəlir. Üçüncüsü, əgər orta ölçülü şəhərdə avtobus saatda 4 mindən artıq sərnişin daşıyırsa, tramvay 7 min sərnişini daşımaq iqtidarındadır. Bundan əlavə, pik saatlarında tramvaya əlavə vaqonlar qoşmaq mümkündür. Dördüncüsü, tramvayın istismar müddəti daha uzundur (40 ildən artıq). Məsələn, Belçikada XX əsrin 70-ci illərində buraxılmış vaqonlardan indi də istifadə olunur. Milanda isə 1928-ci ildə buraxılmış retro vaqonları görmək olar. Beşincisi və ən başlıcası, tramvaylar havanı çirkləndirmir, ətraf mühitə mənfi təsir göstərmir.

**"Tramvay renessansı" (dirçəliş)**

**Lissabon.** Hazırda bu şəhəri tramvaysız təsəvvür etmək çətindir. Burada ilk tramvaylar XIX əsrin sonlarında, 1873-cü ildə görünmüşdür. Hazırda Lissabonda müasir, geniş və tutumlu tramvaylarla yanaşı, bərpa edilmiş köhnə, retro üslublu, sarı rəngli tramvaylardan da istifadə edilir. Şəhərin dağlıq yerlərində tramvay üçün sərt eniş-yoxuşlarda funikulyorlar tramvayları əvəz edir. Yerli sakinlər deyir ki, əgər siz Lissabonda olub funikulyora minməmisinizsə, deməli Lissabonda olmamısınız...

**Helsinki.** Tramvay Finlandiyada ən romantik nəqliyyat vasitəsi sayılır. Paytaxt Helsinkidə tramvay ilə metrodan daha uzaq məsafələrə getmək olur. Burada tramvaylar müasir, isti və sürətlidir. 100 yaşını keçmiş Helsinki tramvayı şəhər sakinlərinin sevimli nəqliyyat vasitəsidir.

**Nitsa və Marsel.** Kütləvi avtomobilləşmə dövründə (1920-1960-cı illər) Fransa tramvaylardan məhrum oldu. Lakin 1990-cı illərdən başlayaraq ölkə bu səhv addımın nəticələrini gördü və onları yenidən şəhərlərinin küçələrinə qaytardı. 20 il ərzində Fransada 32 şəhərin küçələrində yenidən tramvaylar göründü. Bütün bunlar ölkə vətəndaşlarının həyat səviyyəsini yaxşılaşdırmaq üçün dövlət siyasəti səviyyəsində görülür.

İlboyu turistləri qəbul edən Nitsada sərnişinlərin yarıdan çoxu məhz tramvaylarla daşınır.

Marsel bütövlükdə XIX əsrin klassik fransız tikililərindən ibarətdir. Müasir tramvaylar bu şəhərlərdə klassik üslublu qalalar, məbədlər, saraylarla gözəl vəhdətdədir. Mütəxəssislər Fransanı Qərbdə tramvayın dirçəlişinin ən uğurlu nümunəsi adlandırır. "Tramvay renessansı"ndan danışarkən, ilk növbədə, Qərbin inkişaf etmiş ölkələri nəzərdə tutulur. Onların arasında tramvay şəbəkələri üzrə lider ölkələr Almaniya və Fransadır.

**İstanbul.** Təkcə onu qeyd etmək kifayətdir ki, İstanbul tramvayı 14 milyonluq şəhərin mərkəzində mükəmməl bir metro xəttini əvəz edir. Şəhərin mərkəzində tramvay xətti bərpa olunmayana qədər İstanbul küçələrindəki avtomobil xaosunu, yəqin ki, türklər yaxşı xatırlayır. Hazırda İstanbul tramvayları hər gün 300 min sərnişini mənzil başına çatdırır.

Keçmiş SSRİ respublikalarında isə 1960-cı illərdən başlayaraq, tramvaylar avtobuslar tərəfindən sıxışdırılmağa başladı və sonda tramvay xətlərinin bağlanması ilə nəticələndi. Şərqi Avropanın ayrı-ayrı ölkələri – Polşa, Çexiya, Macarıstan, eləcə də Estoniya, Latviya, Slovakiya və Xorvatiya sosialist irsini qoruyub saxlayaraq, tramvayları müasir texnologiyalarla tamamlayaraq onlardan istifadəni davam etdirdilər.

Tunis, Argentina və Meksikada isə tramvay nəqliyyatının dirçəlişinə 1980-ci illərdə, Qərbi Avropa və Şimali Amerika ilə eyni vaxtda başlanmışdır.

**"Tramvay renessansı" rəqəmlərdə**

Tramvay infrastrukturunun dəyəri avtobus infrastrukturunun dəyərindən yüksək olsa da, tramvayın sərnişindaşıma qabiliyyəti avtobusun sərnişindaşıma qabiliyyətindən 3 dəfə (adi tramvay) və ya 4 dəfə (sürətli tramvay) çoxdur. İri şəhərlərin nəqliyyata olan ehtiyaclarının ödənilməsi üçün müasir tramvaylarla saatda 15-20 min insanın daşınması kifayət edir.

1968-ci ildən dünyanın 30 ölkəsində 141 yeni tramvay sistemi (3729 km) açılmış, 8 ölkədə 21 sistem sürətli tramvay səviyyəsində yenidən qurulmuş və modernləşdirilmişdir (752 km).

"Tramvay renessansı" nəticəsində dünya üzrə tramvay sistemlərinin ümumi sayı xeyli artmış (253-dən 394-ə qədər), tramvay xətlərinin ümumi uzunluğu 11 774 km-dən 15 490 km-ə çatmışdır.

Tramvayın bərpasından və dirçəlişindən danışmağa əsas verən faktlardan biri də odur ki, Yer kürəsi əhalisinin 42%-i tramvay nəqliyyatı olan ölkələrdə yaşayır, dünya iqtisadiyyatının 70,5%-i həmin ölkələrdə cəmləşib. Planetin 100 iri iqtisadi mərkəzindən 41-də tramvay inkişaf edir.

Ekspertlərin hesablamalarına görə, 1 km metro xəttinin tikintisi 50-100 mln. dollara başa gəlirsə, 1 km tramvay xəttinin tikintisinə 10-30 mln. dollar bəs edir.

***P.S.** Döngələrdə cingildəyən və zəngi uzaqdan eşidilən tramvay... Bir çox filmlərin, povestlərin, mahnıların qəhrəmanı. Hazırda öz sələflərindən seçilən müasir, sürətli, etibarlı və rahat tramvaylar bir çox şəhərlərin əsas nəqliyyat vasitəsidir. Yarıqaranlıq vaqonda səyahət iri meqapolisin qarışıqlığını unutdurur. Vaqonun pəncərəsindən körpüləri, bulvarın fənərlərini, fəvvarələri seyr etdikcə hər şeyi unudursan... Qəlbində bir rahatlıq, sakitlik, istilik var... Bu romantik tramvay səni uzaqlara aparır, ancaq dəqiq bilirsən ki, relsindən çıxmayacaq, tıxaca düşməyəcək. Bu dəqiqələr ərzində sən qayğısızsan. Və özünü lap uşaq kimi hiss edirsən...*

*Mən "tramvay" adlanan rahat, ucuz və etibarlı nəqliyyat vasitəsinin gələcəyini belə görürəm. Ümid edirəm ki, hər bir şəhərin bəzəyi olan tramvayın yenidən Bakıya qayıdacağı və şəhər sakinlərinin sevimlisinə çevriləcəyi gün uzaqda deyil...*

**Yeganə MƏMMƏDOVA**

# UNEC dünyanın 250 aparıcı universiteti ilə bir sırada

UNEC Türkiyənin İstanbul şəhərində keçirilən III Avrasiya Beynəlxalq Ali Təhsil Zirvəsində ("EURIE-2018") təmsil olunub.

70 ölkədən 2500-dən çox təhsil nümayəndəsinin qatıldığı zirvə toplantısında UNEC-i Beynəlxalq Əməkdaşlıq Departamentinin əməkdaşı Turan Süleymanov təmsil edib.

Dünyanın 250 aparıcı ali təhsil müəssisəsinin stendinin yer aldığı "EURIE-2018"-də regionun 4 dildə təhsil verən ən böyük iqtisadyönümlü universiteti olan UNEC-in guşəsi sərgi iştirakçılarının xüsusi marağına səbəb olub. Malayziya ali təhsil naziri Idris Jusoh Avrasiya Universitetlər Birliyinin prezidenti, professor Mustafa Aydın və İstanbul Aydın Universitetinin rektoru, professor Yadigar İzmirli də UNEC-in stendini ziyarət edənlər sırasında olub.

Dünya təhsil bazarında, o cümlədən nüfuzlu beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin əhəmiyyətli dərəcədə yüksəldiyini nəzərə alaraq, ölkəmizdə iqtisadyönümlü təhsil almaq istəyən ziyarətçilər UNEC Biznes Məktəbi, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Türk Dünyası İşlətmə Fakültəsi, Beynəlxalq İqtisadiyyat Məktəbinə qəbulla bağlı suallar ünvanlayıblar. Onlar UNEC-ə əcnəbi tələbələrin cəlb olunması istiqamətində həyata keçirilən yeniliklərlə maraqlanıblar.




UNEC stendi digər iştirakçı universitetlərin də diqqətini cəlb edib. Azərbaycan təhsil məkanına inteqrasiya etməyi hədəfləyən dünyanın bir neçə aparıcı universiteti bu istiqamətdə UNEC ilə əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər. 3 gün davam edən Avrasiya Ali Təhsil Zirvəsində beynəlmiləlləşmə, təhsil siyasəti, tələbə mübadiləsi proqramları, regional təlim strategiyaları, meyillər və imkanlar müzakirə olunub, ikitərəfli danışıqlar aparılıb.

"EURIE-2018" zirvə toplantısı Avrasiya Universitetlər Birliyinin təşkilatçılığı və Türkiyə Xarici İqtisadi Əlaqələr Qurumunun dəstəyi ilə keçirilib.

# UNEC-də təlim kursları: "Müasir vergi inzibatçılığının əsas trendləri"

UNEC-də Azərbaycan Respublikası Vergilər Nazirliyinin dəstəyi ilə vergi sahəsində təlim kurslarına start verilib. Təlimləri vergi sahəsinin təcrübəli alim və mütəxəssisləri aparacaq.

UNEC Biznes Mərkəzinin direktoru Asəf Əsədov bildirib ki, məqsəd tələbələri müasir vergi inzibatçılığının əsas trendləri, inkişaf istiqamətləri, müasir analitik texnologiyalar barədə məlumatlandırmaq və bilik menecmenti yaxınlaşmalarının rolunu gücləndirməkdir. Təlimlərin vergi inzibatçılığı və menecmenti, vergi auditi, İKT və vergi analitikası istiqamətləri üzrə aparılacağını vurğulayan A.Əsədov sonda mövzulara uyğun imtahanlar keçiriləcəyini, imtahanları uğurla verən tələbələrə isə sertifikatlar təqdim olunacağını bildirib. Təlimin ilk günündə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü,



professor Akif Musayev vergitutmanın tarixi, əsas anlayışları, dövlət üçün əhəmiyyəti, hüquqi bazası və beynəlxalq vergitutma ilə bağlı mövzularla tələbələrə təlim keçib. Professor sonda tələbələri maraqlandıran sualları cavablandırıb.

Təlimlər martın 19-dək davam edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# DÖVLƏT PROQRAMLARI ÖZÜNDƏ KOMPLEKS YANAŞMANI VƏ TARAZLI İNKİŞAFI EHTİVA EDİR

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın (2014-2018-ci illər) dördüncü ilinə yekun vuruldu. Bu yaxınlarda ölkə başçısı İlham Əliyevin sədrliyi ilə keçirilən konfransda görülən işlər nəzərdən keçirilmiş və belə qənaətə gəlinmişdir ki, üçüncü mərhələ Dövlət Proqramı da uğurla icra olunur. İndiyədək gerçəkləşən proqramlar bölgələrin hərtərəfli, tarazlı və bərabər templi inkişafını təmin etmiş, rayon və kəndlərimizi, yaşayış məntəqələrimizi inanılmaz təbəddülat və tərəqqi yoluna çıxarmışdır. İnkişaf proqramları birtərəfli mahiyyət daşımayıb, sosial-ticarət və iqtisadi həyatın bütün sahələrinə sirayət etmişdir. Mükəmməl ölçü-biçimdə, kompleks yanaşmanın nəticəsidir ki, ölkə miqyasında diqqətdən kənarda qalan sahə qalmamışdır. Regionların infrastrukturu problemləri kompleks şəkildə öz həllini tapmış və bu işlər tempini azaltmadan davam etdirilir. İndi regionları nə zahiri görkəminə, nə də inkişaf tempinə görə bir-birindən fərqləndirmək olmur. İnkişaf dalğası hər yanı bürüyüb. Tarixə islahatlar ili kimi daxil olan 2017-ci il də bölgələrimiz üçün uğurlu olub, kənd təsərrüfatı məhsullarının istehsalında ciddi artım baş verib.

**2017-ci ildə Zərdab rayonunda 107 milyon 715 min manatlıq ümumi məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı il ilə müqayisədə 10 milyon 244 min manat və ya 10,5 faiz çoxdur. İstehsal olunmuş məhsulun 65 milyon 400 min manatı, yaxud 60,7 faizi kənd təsərrüfatının, 10 milyon 956 min manatı tikintinin, 20 milyon 515 min manatı ticarətin, 3 milyon 312 min manatı sənayenin, 1 milyon 237 min manatı nəqliyyatın, 593 min manatı poçt və rabitə xidmətlərinin payına düşür.**

Rayon əhalisinin hər nəfərinə düşən məhsul və xidmətlərin həcmi 1854 manat təkil etmişdir. Ticarət şəbəkələrində 78 milyon 750 min manatlıq istehlak malları satılmışdır ki, bu da əvvəlki ilə nisbətən 14,1 faiz çoxdur. Əhaliyə göstərilən xidmətlərin xüsusi çəkisində özəl bölmə əsas yer tutur.

Keçən il rayon iqtisadiyyatına yerli sahibkarlıq subyektləri tərəfindən 3 milyon manat investisiya qoyulmuş, 14 hüquqi və 543 fiziki şəxs vergi orqanlarında qeydiyyatdan keçmişdir. Həyata keçirilən tədbirlər nəticəsində 2017-ci ildə Zərdab rayonunda 3000-ə yaxın, o cümlədən 671 daimi iş yeri açılmışdır.

Rayon iqtisadiyyatının aparıcı sahəsi olan kənd təsərrüfatının inkişafında ciddi irəliləyişə nail olunmuşdur. Ötən il 19 min 753,5 hektardan 58 min tondan çox taxıl əldə olunmuşdur ki, bu da əvvəlki ilin göstəricisindən 6 min 701 ton çox olmaqla rayon tarixində ən yüksək göstəricidir. Bu həm də o deməkdir ki, rayonda adambaşına 1 tondan artıq taxıl düşür. Toxumçuluq üzrə 9 fermer təsərrüfatı 272 hektar sahədən 921 ton taxıl götürmüşdür. 2017-ci ildə nəzərdə tutulmuş 3000 ton əvəzinə, 3324 hektar ərazidə pambıq əkilmiş, 4 min 191,2 ton məhsul yığılaraq emal müəssisələrinə təhvil verilmişdir. Bu da əvvəlki ilə nisbətən 4,7 dəfə çoxdur. 1200 tondan artıq pambıq maşınlarla yığılmışdır.

**Keçən il 27,5 ton barama istehsal edilmişdir ki, bu da əvvəlki ilin göstəricisindən 4 dəfə çoxdur. Proqnoz tapşırığa 112,7 faiz əməl edilmişdir ki, bu da respublika üzrə ən yüksək göstəricidir. İri malın sayı 54 min 678 başa, qoyun və keçilərin sayı 113 477 başa çatmışdır ki, bu da müvafiq olaraq bir il ərzində 109 və 468 baş artım deməkdir. Rayonda 43,8 min sentner ət, 319 min sentner süd, 8,8 milyon ədəd yumurta və 1787 sentner yun istehsal edilmişdir. "Turac-2008" MMC-də 10 min baş cücə inkubasiya edilərək əhaliyə satılmışdır.**

2017-ci ildə İmişli rayonunda da bütün sahələrdə inkişaf dinamikası özünü göstərmişdir. İqtisadiyyatın əsas sahələri üzrə 497 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Məhsul istehsalının 232 milyon manatı və ya 46,7 faizi sənaye, 111 milyon manatı və ya 23,4 faizi kənd təsərrüfatı, 66 milyon manatı və ya 13,3 faizi tikinti, 72 milyon manatı və ya 14,6 faizi ticarət, iaşə və s. sahələrin payına düşür. 2017-ci ildə iqtisadiyyatın əsas sahələrinin inkişafına 87 milyon manat investisiya qoyulmuşdur. Bu vəsaitin 30 milyon manatı sənaye sahəsinə, 38 milyon manatı kənd təsərrüfatına, 16 milyon manatı enerji və su təchizatına, qalan vəsait ticarət, xidmət və yaşayış evlərinin tikintisinə sərf edilmişdir.

2017-ci ilin may ayında İmişli nümayəndə heyəti Rusiya Federasiyasının Arxangelsk vilayətinin qubernatorunun dəvəti ilə orada keçirilən iqtisadi forumda iştirak etmiş və orta sahibkarlıq subyektləri arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması ilə əlaqədar bir sıra razılaşmalar əldə olunmuşdur.



Onu da vurğulamaq lazımdır ki, İmişli aqrar rayon olmasına baxmayaraq, burada sənaye məhsullarının istehsalı üstünlük təşkil edir. Son illər rayonda emal sənayesinin inkişafı üçün bir sıra işlər görülmüşdür. Belə ki, hazırda "Azərbaycan Şəkər İstehsalı Birliyi" MMC-nin kəllə qənd, qarışıq yem, bitki yağları, şərab emalı, çuğundur, yem qurutma zavodları, Bəhramtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Quragüvəndili kəndində damazlıq yumurta istehsal edən "Araz Damazlıq Quşçuluq" MMC, İmişli Broyler və "Araz Konservləşdirirlmiş şirələr və konyak" zavodları fəaliyyət göstərir. Ötən il İmişli rayonunda 15 641 hektar torpaq sahəsində pambıq əkini aparılmış və yaxşı məhsul tədarük edilmişdir. 2017-ci ildə heyvandarlıq və quşçuluq sahələrinin inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın sayı 34 min baş, davarların sayı 251 min baş, quşların sayı isə 1 153 474 başa çatmışdır. 2017-ci ildə 11 452 hektar sahədə buğda, 4838 hektar sahədə arpa, 237 hektar sahədə kartof, 340 hektar sahədə bostan, 138 hektar sahədə tərəvəz, 175 hektar sahədə qarğıdalı, 435 hektar sahədə şəkər çuğunduru əkilmişdir.

2017-ci ildə rayon üzrə 2667 iş yeri açılmışdır ki, bunun da 1217-si daimidir.

2017-ci il Zaqatala rayonu üçün də əlamətdar və yaddaqalan il olub. İlin ən yaddaqalan hadisəsi isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqust ayının 3-də Zaqatala rayonuna səfəridir. Dövlət başçısının yüksək diqqət və qayğısı sayəsində Azərbaycanın bütün regionları kimi, Zaqatalanın sosial-iqtisadi və mədəni həyatında mühüm dəyişikliklər baş verib. Belə ki, 2017-ci ildə rayonda 381,1 milyon manatlıq ümumi məhsul istehsal edilib və xidmətlər göstərilib ki, bu da əvvəlki illə müqayisədə 19,9 faiz çoxdur. Məhsul istehsalı sənayedə 40,5 faiz, kənd təsərrüfatında 12,8 faiz, ticarətdə 4,6 faiz, rabitədə 10 faiz, pullu xidmətlərdə 9,3 faiz artıb. İl ərzində rayonda 2435 daimi olmaqla 2525 yeni iş yeri açılıb. Əsas kapitala yönəldilən investisiyaların həcmi 4 dəfə artaraq 49,2 milyon manata, o cümlədən tikinti-quraşdırma işlərinin həcmi 3,3 dəfə artaraq 39,4 milyon manata çatıb. Sənaye parkının yaradılması istiqamətində işlər davam etdirilmiş, rayon icra hakimiyyəti və "RR" şirkətlər qrupu tərəfindən Zaqatala rayonunun Aşağı Tala kəndində "Şimal-Qərb" brendi altında Sosial Ticarət Mərkəzinin tikinti üçün torpaq sahəsinin ayrılmasına və layihələndirmə işlərinə başlanılıb.

Respublikada istehsal olunan fındığın böyük hissəsi Zaqatala sahibkarları tərəfindən ixrac olunduğuna görə, Dövlət Gömrük Komitəsi fındığın analizlərini aparmaq üçün burada xüsusi laboratoriya açmışdır ki, bu da sahibkarlıq subyektlərinin işini xeyli asanlaşdırıb.

**Baramaçılığın dirçəldilməsi və gələcəkdə yaş barama istehsalının və tədarükünün artırılması məqsədilə rayonda 2017-ci ilin payız mövsümündə 129 min ədəd tut tinginin əkilməsi həyata keçirilib ki, bunun da 80 min ədədi Çin Xalq Respublikasından gətirilib.**

Tütünçülük və tütün emalı sənayesinin inkişaf etdirilməsi məqsədilə 2017-ci ildə fermerlər arasında geniş maarifləndirmə işləri aparılıb. Keçən il proqramlaşdırılan 700 hektar əvəzinə, 743 hektar sahədə tütün əkilərək sahələrdən 891 ton quru tütün tədarük edilib. Zaqatala üçün ənənəvi və yüksək ixrac potensialına malik olan gülçülüyün inkişaf etdirilməsi məqsədilə "AzROSE" MMC-nin sifarişi əsasında Aşağı Tala kəndi ərazisində ümumi sahəsi 1250 kv. m olan 3 mərtəbəli inzibati bina, ümumi sahəsi 1002 kv. m olan istehsalat binası, ümumi sahəsi 150 kv. m olan qazanxana və digər tikililər inşa edilib, 5000 ton tutumu olan su anbarı, damcılama-suvarma sistemi quraşdırılıb, kənd təsərrüfatı texnikası alınıb. Müəssisə tərəfindən 132 hektar qızılgül, 35 hektar lavanda olmaqla 192 hektar gül plantasiyası salınıb.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağstafanın da inkişafına güclü təkan vermişdir. Cənab Prezident İlham Əliyevin rayona səfərləri, imzaladığı sərəncamlar, verdiyi qərarlar Ağstafanı tərəqqi və yüksəliş yoluna çıxarmışdır. Məhz bu diqqət və qayğının nəticəsidir ki, son 7 ildə rayonda ümumi məhsul istehsalının həcmi 2,9 dəfə, sənaye məhsulu istehsalı 2,2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 8,6 dəfə, əsas kapitala yönəldilən investisiyalar 9,2 dəfə, otra aylıq nominal əməkhaqqı 1,4 dəfə artmışdır.

Ötən il rayon iqtisadiyyatına 34,8 milyon manat özəl investisiya qoyulmuşdur ki, bunun da 25 milyon manatı xalis investisiyalardır. Cəmi 6 milyon manat büdcəsi olan bir rayona təxminən 6 dəfə çox investisiyaların yönəldilməsi çox müsbət tendensiyanın başlanmasından xəbər verir. Təsadüfi deyildir ki, regionların sosial-iqtiosadi inkifafı Dövlət Proqramının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda ölkə başçısı ən çox investisiya qoyulmuş 10 şəhər və rayon sırasında Ağstafa rayonunun da adını çəkmişdir. 2017-ci ildə rayonun sosial-iqtisadi inkişafı sahəsində artan dinamika davam etdirilmiş, ümumi məhsul buraxılışının həcmi 208,8 milyon manata çatmışdır.

Ümumi məhsul buraxılışının strukturunda sənaye məhsulunun həcmi 297 faiz, kənd təsərrüfatı məhsullarının istehsalının həcmi 28,4 faiz təşkil etmişdir.

Tikintidə 2,2 dəfə, nəqliyyat xidmətində 4 faiz, rabitə xidmətində 6 faiz ticarətdə 4,7 faiz artım olmuşdur. Əsas kapitala yönəldilən investisiyaların həcmi 9,2 dəfə artaraq 92,2 milyon manata çatmışdır. Ümumi məhsul buraxılışının tərkibində tikinti-quraşdırma işlərinin xüsusi çəkisi 42,4 faiz təşkil etmişdir. Rayon üzrə orta aylıq əməkhaqqı 241,7 manat olmuşdur.

Yuxarıda da deyildiyi kimi, keçən il Ağstafa rayonunun iqtisadiyyatına böyük həcmdə investisiya yönəldilib. Bu vəsaitlər iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının inkişafına, yeni istehsal və emal müəssisələrinin yaradılmasına, bütövlükdə özəl bölmənin dəstəklənməsinə geniş imkanlar açacaq. Görülən tədbirlərin real nəticəsini yaxın vaxtlarda görə biləcəyik.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# "Tibbi sığorta ilə bağlı hər bir xidmət müqaviləmiz unikaldır"

*Bu gün hər bir cəmiyyətin həyatında, insanların sağlamlığının qorunmasında və təmin edilməsində tibbi sığortanın müstəsna əhəmiyyəti var. O cümlədən, Azərbaycan cəmiyyəti üçün də tibbi sığorta amili olduqca aktualdır. Bu barədə suallarımızı "Ata-Sığorta" ASC-nin Tibbi və Səyahət sığortası departamentinin direktoru Rozaliya Sadıqova cavablandırır. 12 ildən artıqdır ki, tibbi sığorta ilə məşğul olan, ixtisasca kardioloq Rozaliya xanım təmsil etdiyi qurumun bu sahədə göstərdiyi xidmətlər, həmçinin tibbi sığortanın bir sıra vacib məqamları və incəlikləri ilə bağlı fikirlərini bildirdi.*

**- Rozaliya xanım, tibbi sığorta nədir və onun əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Sağlamlığın insan üçün ən mühüm amil olduğunu nəzərə alsaq, tibbi sığortanın çox əhəmiyyətli bir sığorta növü olduğu üzə çıxır. İnsan qəfil bir xəstəliklə üzləşəndə həm maddi, həm mənəvi cəhətdən yardıma, gözlənilməz tibbi məsrəflərin qarşılanmasına, keyfiyyətli tibbi yardımın alınmasına və qayğısını çəkə bilən təşkilata çox ehtiyac duyur. Sığorta şirkəti məhz bu ehtiyacların ödənilməsini öz üzərinə götürür. Ümumiyyətlə, sığorta risklərin başqasına ötürüldüyü və ya riskin başqası ilə bölüşdürüldüyü bir mexanizmdir. Sığorta hər hansı bir itkiyə məruz qalmış şəxsi buna səbəb olmuş hadisədən əvvəlki maliyyə vəziyyətinə qaytarmaq üçün təzminatla təmin edir. Tibbi sığorta sığortanın bir növü olmaqla, sığorta olunan şəxsin aldığı tibbi yardımın ödənişinə təminat verən, sağlamlığının qorunmasının təminatlı bir formasıdır.

**- Tibbi sığortanın tətbiqi formaları və növləri barədə nələri bildirmək olar?**

- Tibbi sığorta icbari və könüllü olur. Könüllü tibbi sığorta korporativ və fiziki şəxslərin sığortasına bölünür. Hazırda Azərbaycanda icbari tibbi sığortanın tətbiqi prosesi üzərində işlər aparılır. Şirkətimiz 12 ildir ki, korporativ könüllü tibbi sığorta ilə məşğuldur. Bu sahədə öncül şirkət olaraq sərfəli və keyfiyyətli xidmət təklif edirik. Öncə bildirim ki, korporativ tibbi sığorta işəgötürənin işçilərinin tibbi xərclərinin qarşılanmasını nəzərdə tutan sosial paketdir. Korporativ tibbi sığorta işəgötürənin işçilərini motivasiya etmək üçün effektiv vasitə olaraq şirkətin rəhbərliyinin işçilərinə qarşı bir qayğı göstəricisi sayılır. Korporativ sosial paketin tərkib hissələrindən biri olan işçilərin tibbi sığortası iş yerinin nüfuzuna təsir göstərir və hər bir işçinin şirkət üçün əhəmiyyətini vurğulayır. Belə qayğının məntiqi nəticəsi kimi xəstələnmə hallarının azalması, əmək məhsuldarlığının artması və çalışdığı şirkətə sadiq münasibətin formalaşması kimi müsbət göstəricilər əldə edilir.

Bağladığımız hər bir müqavilə unikaldır. Hər bir şirkət üçün müştərinin fəaliyyət xüsusiyyətlərinin, işçilərinin sayının, onun tələbatlarının, arzularının və büdcə imkanlarının nəzərə alınması ilə fərdi proqram hazırlanır. Müştərimiz təqdim etdiyimiz xidmətlər siyahısından istifadə edərək, özünə uyğun tibbi sığorta proqramını tərtib edə bilər. Məsələn, xidmətlərdən təcili yardım, ambulator yardım, stasionar yardım, stomatoloji yardım, dərman təminatı, hamiləliyin təqibi, peyvənd və s. göstərmək olar.

**- Tibbi sığorta təklif edən şirkət olaraq hansı klinikalarla işləyirsiniz?**

- Hazırda 70-dən çox klinika, o cümlədən 15-dən çox stomatoloji klinika və 30-dan çox apteklə müqavilələrimiz var. Klinikalarımız tək Bakı şəhəri ilə məhdudlaşmır, regionlardakı özəl klinikalarla da müqavilələrimiz var. Müqavilə bağladığımız klinikalar müəyyən bir qiymətləndirmə göstəricilərinə uyğun olmalıdır. Bu qiymətləndirmə prosesi ildə bir dəfə təkrarlanır, tələblərimizə cavab verməyən klinikalarla müqavilələrimiz dayandırılır və yeni klinikalarla müqavilələr bağlanılır.

**- Sizcə, ölkəmizdə tibbi sığortanın rahat, əlçatan və kütləvi olması üçün hansı məsələlər öz həllini tapmalıdır?**

- Bildiyiniz kimi, təbabət əksər ölkələrdə çox bahalı bir xidmət növüdür və bu, normal haldır. Çünki tibbi xidmət zamanı bahalı avadanlıqlardan, reaktivlərdən, ən əsası uzun illər təhsil almış, bu işə ömür vermiş həkimlərin xidmətindən istifadə olunur. Yəni, xidmətin maya dəyəri çox qiymətlidir, buna görə tibbi sığorta xidməti ucuz ola bilməz. Dünyanın bir çox ölkələrində bu problem icbari tibbi sığortanın tətbiqi yolu ilə öz həllini tapır. Bizim ölkədədə bu proses başlayıb və gözləyirik ki, dünyanın digər inkişaf etmiş ölkələrindəki kimi, bizdə də kütləvi icbari tibbi sığorta tətbiq edilməyə başladıqdan sonra könüllü tibbi sığorta bazarı daha da inkişaf edəcək, həmvətənlərimiz bu sığorta növünə önəm verəcək və sığorta şirkətləri fiziki şəxslərin könüllü tibbi sığortasını geniş tətbiq etməyə başlayacaqlar.



**- Bu iki tibbi sığorta növünü bir-biri ilə nə bağlayır?Sizcə, icbari tibbi sığortanın tətbiqi Azərbaycanda özəl sığorta şirkətlərinin inkişafına necə təsir göstərəcək?**

- İcbari tibbi sığorta hər bir vətəndaş üçün dövlət təminatlı tibbi yardım növüdür. İnkişaf etmiş ölkələrdə həmrəylik prinsipi üzərində qurulmuş icbari tibbi sığorta modeli geniş yayılıb.

Bu prinsipə əsasən, hər işləyən vətəndaşın əməkhaqqından müəyyən məbləğ tutulur, lakin tutulan məbləğdən asılı olmayaraq, tibb müəssisəsinə müraciət etdikdə hər bir vətəndaş müəyyən həcmdə və keyfiyyətdə tibbi yardım alır. Əhali arasında dispanserizasiya - müəyyən olunmuş vaxtlarda məcburi tibbi müayinələr aparılır ki, bu da xəstəliklərin azalmasına gətirib çıxarır. Beləliklə, heç bir vətəndaş maddi imkansızlığa görə tibbi yardımdan məhrum olaraq xəstəliklərdən əziyyət çəkmir.

Könüllü tibbi sığorta isə müxtəlif xidmət növləri, lüks palata, şəxsi həkim, evdə yardım, fərdi post, sığorta olunanın seçimindən asılı olaraq klinikanın, həkimin, mütəxəssisin seçimi, geniş stomatoloji yardım (məsələn, ortodontiyanın, implantalogiyanın tətbiqi), növbəsiz və seçimə uyğun aparılan müayinələr deməkdir. Burda sığorta olunan ödədiyi sığorta haqqından asılı olaraq müxtəlif xidmət növləri olan paketlər ala bilir. Bu o demək deyil ki, icbari tibbi sığorta üzrə alınan tibbi yardım keyfiyyətsiz olur, bu o deməkdir ki, könüllü tibbi sığorta ilə sığorta olunan özəl xəstəxanalarda daha komfortlu yardım ala bilir.

Düşünürəm ki, yaxın gələcəkdə ölkəmizdə bunlar bir-biri ilə rəqabət aparan deyil, bir-birini tamamlayan iki ayrı tibbi sığorta növü olacaq.

# Novruz milli birlik bayramıdır

**"İqtisadiyyat" qəzeti hər zaman ölkəmiz üçün əlamətdar günlərə, milli bayramlara xüsusi diqqətlə yanaşır, öz səhifələrində bu mövzuda məqalələr dərc etməyi, işıqlandırmağı bir ənənəyə çevirərək yaşatmağa çalışır. Bu ənənəyə sadiq qalaraq Novruz bayramı ərəfəsində bayramla əlaqədar silsilə məqalələr oxucularımızın diqqətinə çatdıracağıq.**



Xalqımızın mədəniyyətini, mənəvi dəyərlərini özündə əks etdirərək, dünyaya tanıtdıran bayramlar içərisində Novruzun xüsusi yeri var. Yalnız milli və bəşəri ideyalar daşıyan bayramlar minilliklərin süzgəcindən uğurla keçir. Bu cür bayramlardan olan Novruz da insanlara öz tarixini, folklorunu xatırlatdığı, sevinc, sülh, əmin-amanlıq aşıladığı, təbiət və insanlığa müsbət duyğular bəxş etdiyi üçün ümumbəşəri dəyərlər sistemində ön mövqe tutmağa layiqdir. Xalqımız tərəfindən yüksək səviyyədə qeyd olunan Novruz hələ qədim zamanlarda insanlar arasında birlik və mehribanlığın möhkəmlənməsi, təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərin, xoş arzuların yaranması, insanla təbiətin bütünləşməsi bayramı kimi qeyd edilmişdir.

Xalqımız milli-mənəvi dəyərlər baxımından ağır sınaqlardan keçsə də, heç bir qadağa ona Novruzu unutdura bilməyib. Bu bayramı müqəddəs milli irs hesab edən dövlət başçısı İlham Əliyev də: **"Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət-ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq", - demişdir.**

Milli ruh və yaddaşımızı bütün zənginliyi ilə əks etdirən Novruz



bayramının özünəməxsus adətləri, ənənə və inacları mövcuddur. Azərbaycan xalqı dünya mədəniyyətinin möhtəşəm bayramlarından olan Novruzun əsas yaradıcı və aparıcı qüvvəsidir. Bu bayramın tarixinə nəzər saldıqda, ona aid mərasim və əlamətlərə ən incə özəlliklərinə qədər yalnız ölkəmizdə əməl olunduğunun şahidi oluruq. Bütün bunların icrası isə zahiri yenilənmə, ilin uğurlu keçməsi, hər şeyin daha yaxşı olacağına inamla bağlıdır. Bayramda **Keçəl qış, Kosa isə şər qüvvələri təmsil edir. Təzə paltar geyinmək təmizlik, küsülülərin barışması cəmiyyətdə birlik, tonqaldan tullanma ağırlıqdan qurtulma anlamına gəlirsə, yumurta döyüşdürülməsi qış və yazdan ibarət iki dünyanın toqquşması, səməni cücərtmək təbiətin canlanması, "qulaq falı" isə yeniliklər eşitməyə ehtiyac mənasını ifadə edir.**

Novruzun xalqımızın milli birlik və adət-ənənələrinin vahidliyi ideyasında əks olunmasında bayram şirniyyatlarının da mühüm rolu var və onlar da rəmzi məna daşıyırlar. **Belə ki, paxlava dörd ünsürü, şəkərbura Ayı, şorqoğalı, şəkərçörək isə Günəşi ifadə edir. Novruz şirniyyatları qədər bayram süfrəsindəki yeməklər də önəmlidir. Hər süfrədə aşın yer alması düyünün, çəltiyin xalqımızın təsərrüfat həyatındakı əvəzsiz rolu və çəkisi ilə əlaqədardır. Bayram süfrəsinə "S" hərfilə başlayan 7 növ qidanın qoyulması da Novruzla bağlı inanclardandır.**

### Novruz çərşənbələri

Novruz bayramının özəllikləri sırasında çərşənbələr də xüsusi yer tutur. İnsanın, kainatın yarandığı 4 ünsürün çərşənbələr şəklində qeyd olunması Novruzdan, yəni gecəylə gündüzün bərabərləşməsindən əvvəl həyata keçirilir. Bahara doğru buzların əriyərək çaylara tökülməsi, torpağın yavaş-yavaş islanmağa başlaması xüsusiyyətləri ilk çərşənbə olan **SU ÇƏRŞƏNBƏSİNƏ** aiddir. İkinci **OD ÇƏRŞƏNBƏSİDİR** ki, bu da günəşin yavaş-yavaş torpağı isitməsi anlamını ifadə edir. Azacıq oyanmış torpağı, təzə çıxmış gülləri titrədən **YEL ÇƏRŞƏNBƏSİNDƏN** sonra da son olaraq **TORPAQ ÇƏRŞƏNBƏSİ** gəlir. Dördüncü çərşənbəyə həm də **İLAXIR ÇƏRŞƏNBƏ** deyilir. İlk yaz əkininə məhz bu çərşənbədə başlayırlar. Bəzi mənbələrdə Novruz çərşənbələrinin sayının dörd yox, yeddi olduğu qeyd olunur. El arasında "oğru çərşənbələr" adlanan ilk üç çərşənbə kiçik çilləyə düşdüyü üçün və geniş yayılmadığından, yalnız "doğru çərşənbələr" adlanan son dörd çərşənbə qeyd olunur.

Əsrlər boyu bəzi din xadimləri, müxtəlif təriqət nümayəndələri bu bayramı tarixi köklərindən ayırmağa çalışmış, ona dini, mövhümi libas geyindirməyə cəhd göstərmişlər. Onlar Novruzu IV Xəlifə Əlinin hakimiyyətə gəldiyi günlə əlaqələndirmişlər. Lakin İmam Əlinin iyulda hakimiyyətə gəlməsi, Novruzun isə yazda qeyd olunması bunun heç də dini ehkamlarla bağlı olmadığını bir daha təsdiqləyir. Bu bayramı atəşpərəstlik və Zərdüştlüklə bağlayanlar da olur. Lakin bu bayram Zərdüştlükdən əvvəl də qeyd olunub. Tanınmış folklorşünas, professor Məhərrəm Osmanlı da tədqiqatlarında bu məsələyə diqqət yetirmiş, onlar arasındakı kəskin fərqləri nəzərə çatdırmışdır: **"Atəşpərəstlər öz nəfəslərinin belə od-atəşə toxunmasını yasaq saydığı halda, Novruz mərasimində od-tonqal üstündən atılan mərasim iştirakçıları: "ağrım-acım tökülsün, bu odda yansın", - deyərək, öz çillələrini, ağırlıqlarını, dərd-bəlalarını odun üstünə töküb, odda yandırmaq istəyirlər. Deməli, Novruz mərasimindəki od ünsürü "Avesta" və atəşpərəstliklə bağlı deyil".**

### Novruz türk xalqlarının bayramıdır

Novruz şənlikləri yalnız Azərbaycanda deyil, soydaşlarımızın yaşadıqları ən müxtəlif xarici ölkələrdə, o cümlədən türk xalqları arasında geniş şəkildə qeyd olunur. **Bura İran, Türkmənistan, Tacikistan, Özbəkistan, Pakistan, Qazaxıstan, Qırğızıstan və s. ölkələr daxildir.** Türk xalqları arasında təmizlik işlərinin görülməsi, tonqal qalanması, qapıpusma, müxtəlif bayram şirniyyatlarının bişirilməsi kimi ümumi adətlər olmasına baxmayaraq, bir sıra fərqli cəhətlər də mövcuddur.

**Ümumilikdə, əhalisinin yarıdan çoxunun türk olduğu və ərazisində 8 türk xalqının yaşadığı İranda Novruz bayramı 13 gün qeyd edilir.** Burada əsas fərq bayram günündə dərd-bəladan xilas olmaq məqsədilə qadınların, uşaqların saçından bir neçə tük kəsərək, havaya və ya çay sularına atması ilə bağlıdır. Bundan başqa, süfrədə müqəddəs Quran, güzgü və şamlar, qızılbalıq və piyalələr olması təmizlik əlaməti kimi mühüm əhəmiyyət daşıyır.

Bayramın 3 gün qeyd edildiyi Türkmənistanda isə Novruz yeni ilin başlanğıcı hesab olunur: "İlin gəlişi Novruzdan bəlli" atalar sözü də məhz bununla bağlıdır. Türkmənistanda bayramın ilk günü Həzrət Əmirin müqəddəs qırmızı bayrağı göyə qaldırılır. Bayrağın yavaş, maneəsiz və fasiləsiz qaldırılması isə Yeni ilin uğurlu olacağına işarədir. Özbəkistanda isə ailə qurmaq istəyən qızlar sinələrinə qıfıl asaraq, küçəyə çıxır və bu qıfılın açılması səadətə qovuşmaq əlaməti kimi qeyd olunur. Burada yeni ilin bərəkətli olması məqsədilə öküzlərin buynuzu da yağlanır. Özbəkləri digər türk xalqlarından fərqləndirən əsas xüsusiyyət isə Novruz günü bir-birini qucaqlamaq və danışmağa başlamazdan əvvəl 3 qaşıq bal yeməkdir. **Qazaxıstanda isə fərqli Novruz adətlərinə köhnə ilin pisliklərindən, xəstəliklərindən uzaq olmaq məqsədilə evlərin divarlarına, müxtəlif əşyalar üzərinə gil qabların atılıb sındırılması daxildir.**

Türk xalqlarının milli bayramı olan Novruz tarixin ağır sınaqlardan keçərək yaşasa da, əfsuslar olsun ki, hazırda bəzi ənənələr unudulmaqdadır. Lakin hazırda bütün bayramların, o cümlədən Novruzun dövlət səviyyəsində qeyd olunması sevindirici haldır. Bolluq, hərəkət və xeyirxahlıq rəmzi olan Novruz bayramı YUNESCO tərəfindən beynəlxalq səviyyədə qeyd edilir. **Bu bayram Mehriban Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrından YUNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş və martın 21-i BMT-nin Baş Məclisi tərəfindən Novruz günü kimi qeyd edilir.**

Ulu nənə və babalarımızın zaman-zaman qoruyub bizlərə ərmağan etdiyi bu dəyərləri biz də eyni şəkildə gələcək nəslə ötürməyə çalışmalıyıq.

**Mətanət HÜSEYNOVA**

# Azercell Plus Musiqi xidməti ilə hər gün milyonlarla mahnılar smartfonunuzda

Ölkənin lider mobil operatoru Azercell Telekom özünün Azercell Plus xidmətləri çərçivəsində musiqisevərlər üçün Azercell Plus Musiqi xidmətini yenidən təkmilləşdirərək abunəçilərinin istifadəsinə təqdim edib. Artıq Azercell abunəçiləri Azercell Plus Musiqi xidmətini aylıq yox, günlük sifariş edə, 28 000 000 mahnı dinləyə, eləcə də öz fərdi musiqi siyahılarını yarada bilərlər.

Xidmətə qoşulmaq üçün *701#YES kodunu yığmaq və SMS ilə gələn mobil əlavəni yükləmək kifayətdir ki, bu zaman abunəçi 7 gün ərzində Premium xidmətindən pulsuz istifadə imkanı qazanır. Azercell Plus Musiqi




xidməti Google Play və AppStore sistemlərində Zvooq xidməti tərəfindən təmin olunur. Qeyd edək ki, xidmətin günlük abunə haqqı 0,25 qəpik təşkil edir. Zvooq xidməti abunəçinin istifadə etdiyi internet paketin trafikindən hesablanacaq.

Xidmətə Azercell Plus ilə qoşulmağın bir çox üstünlükləri var. Bunlar arasına xidmətdən günlük istifadə imkanı daxildir ki, bu isə mobil xərclərə qənaət deməkdir, Azercell Müştəri Xidmətləri tərəfindən 24/7 tam dəstək, kartsız ödəniş imkanı və s.

Qeyd etmək lazımdır ki, Azercell Plus Musiqi xidmətində istənilən zövqə, əhval-ruhiyyəyə, eləcə də janrlara uyğun olan müxtəlif musiqi siyahıları cəmlənib. Bu xidmətin köməyilə abunəçilər öz zövqlərinə uyğun musiqi siyahılarını yükləyib sonradan onları istənilən qədər offlayn rejimdə dinləyə bilərlər.

# Azercell SABAH Karyera Qış Məktəbi layihəsində Qubada təlimlər təşkil edib



Azercell Telekom MMC ölkəmizdə təhsilin və tələbələrin inkişafına dəstəyini davam etdirir. Şirkət əməkdaşları II dəfə təşkil olunan SABAH Karyera Qış Məktəbi layihəsində Qubada tələbələrə təlimlər keçiblər. Qeyd edək ki, tədbirdən əvvəl təlimçilər Təhsil Nazirliyində nazir müavinin qəbulunda olublar. 100-ə yaxın tələbənin iştirak etdiyi Qış Məktəbində Azercell şirkətinin peşəkar təmsilçiləri Vahida Orucova, Sevinc Teymurova və Ceyhun Suleymanov karyera planlaması, CV və rezume yazılışı, müsahibəyə hazırlıq, təqdimat bacarıqları mövzsunda bilik və təcrübələrini tələbələrlə bölüşüblər. İki gün davam edən təlimin sonunda iştirakçılara sertifikatlar verilib. Təlimlərin keçirilməsində məqsəd sonuncu kursda təhsil alan SABAH tələbələrinə uğurlu karyera başlanğıcı üçün lazım olan bacarıqları aşılamaqdır.

Qeyd edək ki, Azercell-in SABAH qrupları ilə geniş əməkdaşlığı var.

Ötən il ilk dəfə təşkil olunan SABAH Karyera Qış Məktəbi layihəsində də Azercell təmsilçiləri iştirak ediblər. Bundan əlavə, Azercellin Tələbə Təqaüd proqramı çərçivəsində Bakı şəhəri üzrə elan olunmuş yerlərin 50%-i Sabah Qruplarına ayrılıb. Barama İnnovasiya və Sahibkarlıq mərkəzi ilə əməkdaşlıq nəticəsində 6 ay müddətində davam edən inkubasiya proqramına seçilən 5 komandadan biri məhz SABAH qruplarının tələbələri olub. 2017-ci ildə SABAH qrupları tələbələri üçün Azercell Plazada tanışlıq səfəri təşkil edilib, onlar üçün "GSM Texnologiyası ilə tanışlıq", "Məhsulların idarə olunması", "Öz Brendini Yarat" mövzularında qısa sessiyalar keçirilib.

# "Bakcell"ə Papaq at və hədiyyə al! Misilsiz Novruz kampaniyası!

Bakcell şirkəti Novruz bayramı münasibətilə öz abunəçilərinə pulsuz dəqiqə, SMS və meqabaytlar təqdim edəcək.

Abunəçilər hər dəfə nömrənin balansını artırdıqda şirkətdən müxtəlif hədiyyələr alacaq.

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti hər il olduğu kimi, bu il də öz abunəçilərini Azərbaycan xalqının ən sevimli bayramlarından biri olan Novruz bayramında bol-bol hədiyyələrlə sevindirir.

Qonşunun qapısına papaq atıb bayram şirniyyatı payını almaq ən sevimli Novruz adət-ənənəlindən biridir ki, həmin gözəl ənənəyə sadiq qalan Bakcell öz abunəçilərini qapısına virtual papaq atıb pulsuz dəqiqələr, SMS və meqabaytlar qismində Novruz hədiyyələrini almağa dəvət edir. Belə ki, Novruz bayramı ərəfəsində nömrənin balansını ən azı 2 AZN məbləğində artıran hər bir əvvəlcədən ödənişli (prepaid) Bakcell abunəçisini gözəl təsadüfi hədiyyə gözləyir.

Fevralın 26-dan martın 31-dək davam edəcək hədiyyə kampaniyasına qoşulmaq olduqca asandır. Bunun üçün sadəcə "papaq" sözünü yazıb pulsuz SMS vasitəsilə 7777 nömrəsinə göndərmək kifayətdir. Kampaniyaya qoşulandan sonra abunəçi balansına hər dəfə ən azı 2 AZN məbləğində vəsait yükləyəndə "Bakcell"dən təsadüfi hədiyyə alacaq. Bu misilsiz hədiyyə kampaniyası çərçivəsində abunəçilər 100-ə qədər pulsuz şəbəkədaxili zəng dəqiqəsi, 100-ə qədər pulsuz ölkədaxili SMS və hətta 500 Mb-ə qədər pulsuz internet paketi və digər gözəl hədiyyələri qazana biləcəklər.

Qeyd edək ki kampaniya ərzində balans artımı və hədiyyələrin sayına görə heç bir məhdudiyyət yoxdur. Kampaniyada yalnız əvvəlcədən ödənişli (prepaid) Bakcell tariflərinin abunəçiləri iştirak edə bilər. Odur ki, siz də "Bakcell"ə papaq atın və Novruz hədiyyələrinizi alın!

Azərbaycanın İlk Mobil Operatoru "Bakcell" şirkəti bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayır!

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500